# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Bütün əsas siyasi partiyaların bir yerdə toplanması..."**



8


SƏS

№ 044 (7212)

11 mart 2025-ci il.
Qiyməti 60 qəpik


# Vətənə və xalqa xidmət nümunəsi!



2

**Mehriban xanım Əliyeva: "Tarixiliyi, qədim simanı qoruyub-saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib"**

# Avropa silahlanır

**Brüssel sammiti gələcək təhlükəsizlik arxitekturasını işə salır**




10

## Aldadanlar və aldananlar...




12

## 850 milyon əsiri, 3 milyon qurbanı olan xəstəlik



15

## NATO-nun qaranlıq taleyi



4

**Növbəti Ümrə ziyarətinin vaxtı açıqlandı - qiymətlər 800-2000 dollar arası dəyişir...**



16

## Paşinyan sülh üçün tələsmir, fürsət gözləyir...



6

# Vətənə və xalqa xidmət nümunəsi!

## Mehriban xanım Əliyeva: "Tarixiliyi, qədim simanı qoruyub-saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib"

***İctimai-siyasi, sosial-iqtisadi həyatında uğurlar əldə edən Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Bu nailiyyətlər müstəqil dövlətimizin sürətli inkişafına təkan verən uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Müasir Azərbaycan dövlətinin Qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır.***

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, layihələr, aparılan uğurlu islahatlar bütün bölgələrimizin inkişafına, müasirləşməsinə səbəb olub. Azərbaycanın hər yerində olduğu kimi, bu gün qədim tarixə malik olan Gəncə də yeni inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Gəncəyə səfəri tarixi hadisələrlə yadda qaldı. Mehriban xanım Əliyeva çıxışlarının birində bildirdiyi kimi, Gəncə qədim şəhərdir, gözəl şəhərdir, böyük tarixə malik şəhərdir: "Burada bütün tarixi, dini, memarlıq abidələri qorunur və qorunmalıdır. Amma eyni zamanda, Gəncədə müasirlik var, müasir binalar, yeni yollar, infrastruktur, yeni parklar yaradılır... Əlbəttə, tarixiliyi, qədim simanı qoruyub-saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva martın 6-da Gəncə şəhərinə səfər ediblər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar.









### ŞƏHƏRİN İSLAM ALƏMİNDƏKİ YERİ VƏ NÜFUZU

Gəncə Azərbaycanın qədimliklə müasirliyi, Şərq memarlıq üslubu ilə Qərb modernizmini üzvi şəkildə birləşdirən şəhərlərindən birinə çevrilib. Dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, şəhər inkişaf edir və bu gün artıq müxtəlif beynəlxalq tədbirlərin məkanına çevrilib. Şəhərdə həyata keçirilən tədbirlər nəticəsində yeni tikililərlə yanaşı, qədim tarixi abidələr yenidən bərpa edilir. Bu gün Gəncənin gözəlliyinə naxış salan məkanların sayı kifayət qədərdir. Gəncədə əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də, başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olan dini abidə "İmamzadə" Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin islam aləmindəki yerini və nüfuzunu da göstərir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd, məhz dövlətimizin başçısının Sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb. Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan və bitki florasının zənginliyinə görə bütün ölkədə məşhur olan "Xan bağı" da yenidən qurulub. Yenidənqurma işləri ilk dəfə, məhz Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib. Parkda müxtəlif ölkələrdən gətirilmiş ağaclar və dekorativ kollar əkilib. Burada fəvvarələr, müasir işıqlandırma sistemi quraşdırılıb, Venesiya guşəsi yenidən qurulub, 350 yerlik yaşıl teatr inşa olunub.

Mehriban xanım Əliyeva səfər çərçivəsində Gəncənin bir çox yerlərində olmuşdur. Bu gün yeni inkişaf dövrünü yaşayan Gəncədə sosial məsələlər öz həllini tapıb, infrasturuktur yenilənib, şəhərdə abadlıq-quruculuq işləri aparılıb. Belə ki, asfalt yolları, müasir məktəbləri, poliklinikaları var, qazlaşdırma və enerji ilə təminat 100 faizdir.

### "YENİLƏŞƏN AZƏRBAYCANA YENİ MƏKTƏB"

Yarandığı gündən təhsil sahəsinə xüsusi diqqətlə yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramlar həyata keçirərək, ölkəmizdə təhsilin inkişafına öz dəstəyini göstərir.

Məktəblərdə təmir-tikinti işləri, mövcud şəraitin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən görülən işlərlə yanaşı, Heydər Əliyev Fondu tərəfindən də həyata keçirilən layihələr təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olublar. 1969-cu ildə istifadəyə verilmiş tədris müəssisəsində 700-dən çox şagirdin təhsil almaq imkanı olub. Lakin məktəb binası artıq istifadəyə yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 2024-cü ilin sentyabr ayından əsaslı təmir işlərinə başlanılıb. Binada təmir işlərinin bu ilin sentyabr ayında - yeni tədris ilinə qədər yekunlaşdırılması nəzərdə tutulub.

***Ardı Səh. 3***

Əvvəli səh. 2

# Vətənə və xalqa xidmət nümunəsi!

## Mehriban xanım Əliyeva: "Tarixiliyi, qədim simanı qoruyub-saxlamaq, eyni zamanda, müasirləşmək Gəncəni nadir bir şəhərə çevirib"

Qeyd edək ki, yeni tədris ili üçün Heydər Əliyev Fondu paytaxt Bakıda və regionlarda bir sıra məktəblərin inşasını və təmir işlərini başa çatdırmağı nəzərdə tutur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhəri 40 saylı körpələr evi-uşaq bağçasında olublar. Bu məktəbəqədər təhsil müəssisəsi 1967-ci ildə inşa olunub. 120 yerlik uşaq bağçasında faktiki 70 uşağın təlim-tərbiyəsi aparılır. Hazırda bina yararsız vəziyyətdədir. Birinci vitse-prezident Mehriban Əliyeva bağçada məktəbəqədər təhsilin və uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili məqsədi ilə müvafiq tapşırıqlar verib.

Respublikamızda yeni uşaq tərbiyə müəssisələrinin inşası, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulması üzrə həyata keçirilən dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəni daim diqqətdə saxlayır. Fond 2014-cü ildən etibarən, Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramını həyata keçirərək, uşaqların təlim-tərbiyəsinə, onların bilikli və savadlı yetişməsinə öz töhfəsini verir.

Heydər Əliyev Fondunun fəaliyyətində prioritet istiqamətlərdən biri də səhiyyə sahəsidir. Fondun "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi layihələr, bir çox xeyriyyə aksiyaları səhiyyə sahəsinə mühüm dəstəkdir. Paytaxt Bakı ilə yanaşı, bölgələrdə də müasir səhiyyə ocaqları inşa edilir, ən son texnologiyalı tibbi avadanlıqla təchiz olunur.

Gəncəyə səfər çərçivəsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olublar.

Perinatal Mərkəz ana olmağa hazırlaşan qadınlara, o cümlədən dünyaya yeni göz açan körpələrə yüksəkixtisaslı diaqnostik, konsultativ və müalicə yardımı göstərən tibb müəssisəsidir. Tibb müəssisəsindəki şəraitlə tanışlıq zamanı Perinatal Mərkəzə Heydər Əliyev Fondu tərəfindən küvezlər və ultrasəs müayinə aparatı hədiyyə olunub. Yeni doğulmuş körpələri ziyarət zamanı analara Fondun hədiyyələri də təqdim edilib.











### GƏNCƏ MEMORİAL KOMPLEKSİ

44 günlük Vətən müharibəsində xalqımız ermənilərin təcavüzkar siyasəti ilə bir daha üz-üzə qaldı. Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Neçə-neçə qurbanlarımız oldu. Bu erməni faşist ideologiyasıdır. 4 oktyabr 2020-ci il tarixində birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri birinci dəfə erməni terroristləri tərəfindən vuruldu. Onların hədəfləri mülki insanlar, yaşayış binaları oldu. Hücum nəticəsində bir nəfər öldü, 30 nəfər isə yaralandı. 2020-ci ilin oktyabr ayında Gəncə şəhəri Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda bombalanıb. Bombalanmalar 2020-ci il Vətən müharibəsi dövründə baş vermişdir. İkinci raket hücumu isə 5 oktyabrda baş vermişdir. Hücum nəticəsində 3 mülki şəxs yaralanıb. Üçüncü raket hücumu oktybarın 8-də baş vermişdir. Həlak olan və yaralanan olmamışdır. Dördüncü raket hücumu isə 11 oktyabrda baş vermiş və nəticədə 10 mülki şəxs şəhid olmuş və 40-dan çox insan yaralanmışdır. Bu hücum imzalanan atəşkəsdən bir gün sonra baş vermiş və atəşkəsin pozulması ilə nəticələnmişdir. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş vermişdir. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla. 16 nəfər Şəhid olmuş, 55 nəfər isə yaralanmışdır. Hücumlar zamanı şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ziyan dəymişdir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə də tanış olublar. Qeyd edək ki, kompleksin təməli 2022-ci il yanvarın 30-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub.

Memorial Kompleksin ərazisi 4 hektar təşkil edəcək. Kompleksin tərkibindəki muzey binası 2 mərtəbədən ibarət olacaq. Alt mərtəbədə əsas sərgi zalı yerləşəcək. Sərgi zalından kompleksin açıq sahəsinə çıxış olacaq. Açıq sahə spiral formalı divar boyu davam edərək raketin yerdə olan izini simvolizə edəcək.

Üst mərtəbədə müxtəlif tədbirlərin keçirilməsi məqsədilə çoxfunksiyalı otaq yerləşəcək. Kompleksin ərazisində raket zərbəsinin endirildiyi binaların konservasiya edilmiş qalıqları da yer alacaq. Gəncə Memorial Kompleksinin tikintisinin 2025-ci ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, Vətən müharibəsi dövründə Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif təyinatlı "Toçka-U", "Smerç", "SCUD" və digər raket qurğularından endirilən zərbələrə məruz qalıb. Nəticədə 26 mülki şəxs həlak olub, 142 dinc sakin yaralanıb.

### ALEKSANDR NEVSKİ ADINA RUS PRAVOSLAV KİLSƏSİ

Azərbaycan tolerant, mehriban birgəyaşama mədəniyyəti baxımından artıq dünya üçün bir örnəkdir. Tarixən müxtəlif xalqların və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin ölkəmizdə mövcudluğu yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi təqdim edir. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Ölkəmizdə bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir.

Azərbaycan qürurla deyə bilərik ki, yəhudilərin, müsəlmanların və xristianların yan-yana ibadət etdikləri məkandır. Azərbaycanda bütün dini konfessiyaların nümayəndələrinin öz dini etiqadlarını, ayinlərini sərbəst və bərabər şəkildə yerinə yetirmək imkanları var və ölkədə məscidlərlə yanaşı pravoslav, katolik, alban kilsələri və sinaqoqların fəaliyyət göstərir. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və s. onlarla belə qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurların, udilərin sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığının göstəricisidir. Ölkənin ictimai-siyasi, mədəni həyatında iştirak üçün hamı, dini mənsubiyyətindən asılı olmayaraq tam bərabər hüquqa malikdir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncədə Aleksandr Nevski adına Rus Pravoslav kilsəsində olublar. Rus Pravoslav kilsəsi 1887-ci ildə inşa olunub. Məbəd həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına Bizans üslubunda kərpicdən tikilib. Qırx dörd il ibadət evi kimi fəaliyyət göstərdikdən sonra 1931-ci ildə sovet hökuməti tərəfindən bağlanıb. 1935-1938-ci illərdə muzey binası olan məbəd bir müddətdən sonra kafedral anbar kimi istifadə edilib. Bina 1946-cı ildə Rus Pravoslav kilsəsinə qaytarılıb və yenidən qapıları ibadət edənlərin üzünə açıb.

Qədim interyerindəki müxtəlif ikonalar günümüzə qədər gəlib çıxıb. Bunların arasında müqəddəs Aleksandr Nevski və müqəddəs Mariya Maqdalena adına ikonaları xüsusi qeyd etmək olar. Kilsənin yaradılmasının 110 illiyi 1997-ci ildə qeyd olunub. Kilsə tikilməsinin 130 illiyi münasibətilə 2017-ci ildə təmir edilib.

Azərbaycandakı mövcud pravoslav kilsələri arasında ən qədimlərindən olan bu tarixi abidədə bir sıra növbəti təmir işlərinin aparılmasına ehtiyac yaranıb.

Qeyd edək ki, çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, o cümlədən dini ibadət yerlərinin və maddi-mədəniyyət abidələrinin bərpası, mühafizəsi Azərbaycan dövləti tərəfindən daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev dini icmalara, onların rəhbərlərinə ardıcıl olaraq maddi-mənəvi dəstək göstərməklə Azərbaycanın dövlət-din münasibətlərində nümunəvi təcrübəsini dünyaya nümayiş etdirir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən dinlərarası dialoqun və əməkdaşlığın gücləndirilməsi sahəsində çoxsaylı layihələr həyata keçirilir, ölkəmizdəki, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki məscid, kilsə və sinaqoqlar təmir, bərpa olunur.

Bu qədim və həmişəcavan şəhərin simasında Azərbaycanın sürətli və dinamik inkişafını bir daha görmüş oluruq. Birinci vitse-prezident Mehriban Əliyevanin həyata kecirdiyi layihələr Gəncənin də inkişafına töhfəsini verir.

**Nəzakət ƏLƏDDİNQIZI**

BAXIŞ BUCAĞI

# NATO-nun qaranlıq taleyi

## Şimali Atlantika Blokunun əsas fəlsəfəsi "rusları kənarda, amerikalıları içəridə və almanları aşağı salmaq" idi

**İkinci Dünya Müharibəsindən sonra qurulan yeni dünya düzənində 1949-cu ildən bu paradiqmanı həyata keçirən NATO tamam başqa bir prosesin içindədir. "İçəridə" saxlanılması hədəflənən ABŞ-da hakimiyyətə gələn Tramp NATO-nun onun çiyinlərində yük olmasından şikayətlənir. O, sözün əsl mənasında ölkəsini paktdan kənarda saxlamaq üçün mübarizə aparır. Məsələn, o, gözünün NATO-nun qurucu üzvü olan Kanadada olduğunu gizlətmir. NATO-nun 70 ildir kənarda saxlamağa çalışdığı Rusiya ilə "müttəfiq" olmaq yolunda sürətli addımlar atır. Bu, şişirtmədirmi?**

Dekabrda Suriya inqilabı zamanı Rusiyanın bölgədən sakitcə geri çəkilməsinə səbəb kimi Tramp və Putin arasında əldə olunan Ukrayna razılaşmasını göstərilmişdi. Son hadisələr bu tezisi açıq şəkildə təsdiqləyir. ABŞ və Rusiya arasında isti küləklər əsdiyi bir vaxtda Tramp Ukrayna prezidenti Zelenskini Ağ Evdən qovur. Bayden administrasiyası və Avropa Birliyi Zelenskinin arxasında tam birləşir, onu seçkilərdə iştirak etmədiyi üçün qeyri-legitim elan edir və keçmiş Qərb Blokunun diktator adlandırdığı Putinlə yola getməyə hazırlaşır.

Putinin son müharibədə Ukraynadan aldığı Krımın, eləcə də Donbasın və Luqanskın Rusiyanın tərkibində qalacağı dəqiqdir. Ukraynanın neçə hissəyə bölünəcəyi məlum deyil. Tramp administrasiyası bu yaxınlarda Ukraynaya verdiyi kəşfiyyat məlumatlarını kəsib və Avropa mətbuatında tez-tez istifadə olunan ifadəni işlətməklə, Zelenskiyə göz yumub. Çox güman ki, ABŞ və Rusiya arasında flört yalnız Ukrayna ilə məhdudlaşmayacaq və Tramp "əsas təhlükə" kimi gördüyü Çini təcrid etmək layihəsində Putinlə əməkdaşlığı davam etdirəcək.

Hətta bu günə qədər hər zaman ortadan kənar danışan Çinin ABŞ-a "müharibədirsə, müharibədir" deyərək tonunu sərtləşdirməsi belə bu ehtimalın ciddiliyinə işarədir. Trampın NATO-nun "yerində saxlanmalı" dediyi Almaniyanı yenidən AB daxilində bir gücə çevirmək təklifi təməlqoyucu bir yanaşmadır. NATO-nun getdiyi aydındır, lakin onun yerində yenisinin yaradılmasına ciddi ehtiyac var.

Üstəlik, adı dəyişdirməyə ehtiyac yoxdur. Axı, ABŞ Atlantik okeanında yeganə ölkə deyil. Nə üçün Trampın təhdid etdiyi Meksika və Cənubi Amerika ölkələrini əhatə edən Atlantik Paktı olmasın?

### Türkiyəsiz NATO, mümkündürmü?

Bəs, Avropanın əsas təhlükəsi hesab etdiyi Rusiya ilə yaxınlaşan ABŞ-ı kənarda qoyan NATO mümkündürmü? Trampın hakimiyyətə gəlişindən cəmi bir neçə ay ərzində bütün qlobal tarazlıqları alt-üst edən radikal addımları və ritorikasını nəzərə alsaq, bu, təəccüblü bir hadisə deyil. Financial Times-a danışan Xarici İşlər Naziri Hakan Fidanın "Cin şüşədən çıxdı və onu geri qaytarmağın heç bir yolu yoxdur. Prezident Tramp indi Avropadan çəkilməməyi seçsə belə, gələcəkdə oxşar baxışlara və siyasi ideyalara malik birinin Amerikanın Avropa təhlükəsizliyinə töhfəsini azaltmağı düşünməsi mümkündür" proqnozu da bu ehtimalın fantaziya olmadığını göstərir. NATO-nun ABŞ-dan sonra ikinci ən böyük ordusuna sahib olan Türkiyənin belə bir prosesdə aparıcı rol oynayacağı şübhəsizdir.

### Makronun "beyin ölümü"

2019-cu ildə Fransa prezidenti Emmanuel Makron Türkiyənin "Sülh çeşməsi" əməliyyatına istinad edərək "NATO-nun beyin ölümü var" demişdi. Prezident Ərdoğan Fransa prezidentinə "Cənab Makron, baxın, Türkiyədən səslənirəm, NATO-da da deyəcəm, əvvəlcə öz beyin ölümünüzü yoxlayın. Türkiyəni NATO-dan çıxarmaq üçün yoxsa yox... Bura sizin yerdirmi? Belə bir şeyə qərar vermək səlahiyyətiniz varmı?" deyə çağırış etmişdi. Görək ABŞ-ın NATO-da sipərinin zəifləməsi ilə üzə çıxan Avropanın liderliyini üzərinə götürən Makron nə vaxt Ankaranın qapısını döyəcək. Şübhəsiz ki, 2019-cu ildə onun "proqnozu" xatırlanacaq.



Transatlantik alyans ABŞ prezidenti Donald Trampın Ukrayna ilə bağlı mövqeyindən sarsılıb. Vaşinqtonla münasibətlərin gərginləşməsi ilə Avropa öz başına qaldı. Xarici işlər naziri Hakan Fidan qitənin təhlükəsizliyini təmin etməyə çalışan Aİ-nin Türkiyənin dəstəyi olmadan bunu edə bilməyəcəyini bildirib. Fidanın sözlərini təsdiqləyən Avropa mətbuatı Ankaraya ehtiyac duyduqlarını açıq şəkildə bəyan edib. Hətta Yunanıstan da bu reallıqla üzləşməli olub.

ABŞ və Avropa arasında münasibətlər hər gün daha da gərginləşdikcə, Avropa İttifaqı (Aİ) qitənin təhlükəsizliyini təmin etmək üçün yeni planlar hazırlayır. Son hadisələrdən sonra xarici işlər naziri Hakan Fidan da Türkiyəsiz Avropanın təhlükəsizliyinin təmin oluna bilməyəcəyini bəyan edib.

Nazir Fidan dünən Ankarada Xorvatiyanın xarici işlər naziri Qordan Qrliç Radman ilə keçirdiyi birgə mətbuat konfransında Avropa təhlükəsizliyi ilə bağlı açıqlamalar verib. Fidan "Avropanın təhlükəsizliyi məsələsi təkcə Ukraynadakı müharibəyə endirilə bilməz. Avropanın təhlükəsizlik arxitekturası məsələsi uzunmüddətli və strateji baxımdan həll edilməlidir. Bu çərçivədə davamlı və çəkindirici bir təhlükəsizlik arxitekturası ancaq Türkiyənin iştirakı ilə mümkündür" deyib.

Fidanın sözlərinin ciddiliyini anlayan Avropa mətbuatı Türkiyəyə ehtiyac duyduqlarını etiraf edib. Fransanın ən məşhur qəzetlərindən biri olan "Le Monde" xəbəri "Bir zamanlar "qəribə" tərəfdaş olan Türkiyə zəifləmiş Avropa İttifaqı üçün əvəzolunmaz hala gəldi" başlığı ilə yazıb. Le Monde Türkiyənin Aİ üçün əhəmiyyətini açıq şəkildə vurğuladı və Ankaranın xarici siyasət addımlarını yüksək qiymətləndirib.

Le Monde, Türkiyə prezidenti Emmanuel Makronun rəhbərliyi ilə fevralın 17-də Fransada Ukrayna ilə bağlı keçirilən toplantıya dəvət edilməməsini səhv kimi qiymətləndirib. "Makron Ukraynaya dəstəyini bir daha təsdiqləmək üçün yeddi Avropa liderini bir araya gətirdi. Bir neçə AB rəsmisi dəvət edilmədiklərinə görə məyus olduqlarını bildirdilər. Lakin xüsusilə bir ölkə onun yoxluğu ilə seçildi: NATO-nun ikinci ən böyük hərbi gücü olan Türkiyə", - hesabatda deyilir.

### Niyə Türkiyə?

Yunan mətbuatı "AB ölkələri niyə Türkiyəyə üz tutur? sualını verib və vurğulayıb ki, ötən həftə Londonda keçirilən fövqəladə Ukrayna təhlükəsizlik sammitinə Yunanıstan deyil, Türkiyə dəvət olunmalıdır. Yunanıstanın baş naziri Mitsotakis dünənki Brüssel sammitində Türkiyənin Avropanın möhkəm təhlükəsizliyinə daxil edilməməsi lazım olduğunu bildirib. Hadisələr xarici işlər naziri Hakan Fidan və Milli Müdafiə Nazirliyinin Türkiyənin Avropa təhlükəsizliyinə qarışması ilə bağlı açıqlama verdikdən sonra baş verib. Budur təfərrüatlar...

Londonda keçirilən fövqəladə Ukrayna Zirvə toplantısında Türkiyəni xarici işlər naziri Hakan Fidan təmsil edib. Dünən Financial Times qəzetinə verdiyi müsahibədə xarici işlər naziri Hakan Fidan Avropanın təhlükəsizliyi ilə bağlı "Ox yayından çıxdı və onu geri çevirmək mümkün deyil" deyərək NATO-nun dağılması halında Türkiyənin yeni Avropa təhlükəsizlik arxitekturasının bir parçası olmaq istəyəcəyini bildirib. Yunanıstanda hökumət və mətbuat hadisələrin ardından hərəkətə keçib. News247.gr xəbər saytı Avropanın Türkiyəyə ehtiyacı ilə bağlı bu açıqlamanı verib: "Xatırladığınız kimi, İngiltərənin təşəbbüsü ilə ötən bazar günü Avropa müdafiə və Ukrayna sammiti keçirilmişdi. Türkiyə bu sammitə dəvət olunarkən, Yunanıstan dəvət edilməmişdi. Bu, ilk dəfə deyil ki, bəzi Avropa İttifaqına üzv dövlətlər Türkiyəni Avropa müdafiəsinin bir hissəsi etməyə çalışırlar. İngiltərə, Almaniya və hətta ABŞ 2000-2003-cü illər arasında müzakirələrdə Türkiyəni Avropa ordusuna daxil etməyə çalışıb".

Yunan nəşri "AB ölkələri niyə Türkiyəyə üz tutur?" sualını da verib. "Aydındır ki, təkcə Böyük Britaniya deyil, Mərkəzi və Şimali Avropanın bəzi ölkələri də Türkiyəni potensial müdafiə tərəfdaşı kimi görür. Həqiqətən də Avropa İttifaqının xarici işlər naziri Kaja Kallas sammitin nəticələrini sabah Ankaraya təqdim edəcək. Bu arada Türkiyə Müdafiə Nazirliyindəki mənbələr "lazım gələrsə" Ukraynaya qoşun göndərməyə hazır olduqlarını açıqlayıb. Yunanıstanın baş naziri Mitsotakis Brüsseldə keçirilən Aİ ölkələrinin toplantısında "Aİ təkcə Ukraynaya deyil, Şərqi Aralıq dənizi ilə bağlı Türkiyəyə də diqqət yetirməlidir" deyib. Məlumata görə, Mitsotakis Türkiyənin Avropa müdafiəsinin bir hissəsi olmayacağına dair təminat istəyib. Yunanıstan xəbər saytının Yunanıstan hökumətindəki mənbələrə istinadən verdiyi xəbərə görə, "Baş nazir dolayı yolla, lakin açıq şəkildə bildirib ki, Avropa İttifaqı (Aİ) yalnız şərqə, yəni Ukraynaya fokuslana bilməz".

"Para Politika"da yer alan xəbərə görə, Cənubi Kipr Rum Administrasiyasının rəhbəri Nikos Kristodoulides dünən verdiyi açıqlamada "Türkiyə Ukrayna ilə bağlı AB liderləri ilə danışıqlara qatılmamalıdır" deyib. Mitsotakisin Brüsselə köçməsi Yunanıstanda tənqidlərdən sonra baş verib. Yunanıstanın müxalifət saytı "Türkiyə Avropanın müdafiəsində aparıcı rol axtarır: Mitsotakisin tolerantlığı milli təhlükə yaradır!", başlıqlı yazısında hökuməti günahlandırıb. Əlavə edib ki, Türkiyə Yunanıstanın hərəkətsizliyindən istifadə edərək öz təsirini genişləndirməkdə davam edərkən, Mitsotakis hökuməti bunun qarşısını almaqda acizdir. Kiriakos Miçotakisin Türkiyəyə qarşı siyasəti və Türkiyənin bölgədə artan nüfuzu Yunanıstanın milli maraqları üçün son dərəcə təhlükəli hal alır.

Nazirlik mənbələri dünən Avropa təhlükəsizlik arxitekturası ilə bağlı suallara cavab olaraq bunları qeyd ediblər: "Türkiyə NATO və ATƏT üzvü və Aİ-yə namizəd ölkə olaraq inkişaf edən müdafiə sənayesi, regional böhranların həllində mühüm rolları və güclü ordusu ilə Avropa təhlükəsizlik arxitekturasının ayrılmaz bir parçasıdır. Son hadisələr nəticəsində təhlükəsizlik arxitekturasının yenidən formalaşdığı bu prosesdə ölkəmiz olmadan Avropanın təhlükəsizliyini təmin etmək mümkün deyil. Lakin bu dövrdə Avropa İttifaqının siyasi müstəvisində müdafiə təşəbbüslərinin qarşısının alınması çox yanlış olardı. Təhlükəsizlik sahəsində narahatlıqlar artmaqdadır, ölkəmizin Aİ-nin müdafiə səylərində tam iştirakı Avropanın qlobal aktora çevrilməsi üçün vacibdir".

***V.VƏLİYEV***

# Siyasi birlik - gücümüzə güc qatan yeni konfiqurasiya






Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasi islahatları Ulu Öndər Heydər Əliyevin cəmiyyətin birliyinin təmin edilməsi uğrunda atdığı addımların məntiqi davamı adlandırmaq olar. Ölkəmizin daim yeniləşən, müasirləşən siyasi həyatında partiyaların təşəbbüslərlə, yeni təkliflərlə çıxış etməsini də dövlətimizin sağlam siyasi mühiti formalaşdırmaq istəyindən irəli gəldiyini deyə bilərik. Siyasi sistemin komponentləri arasında dialoq, anlaşma, ümumi məsələlərdə birgə fəaliyyət çox önəmlidir. Əlbəttə bunlar olmadan cəmiyyətdə birliyini təmin etmək mümkün olmaz. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkə daxilində sabitliyin, sağlam siyasi mühitin yaradılmasında məqsədi cəmiyyətdə birliyi, partiyalar arasında anlaşmanı təmin etməkdir. Bu birlik həm də ölkənin iqtisadi inkişafı, xarici əlaqələrin genişlənməsi, tərəfdaşların etimad və etibarını qazanmaqdır.

Vətən Müharibəsinin ikinci günündə, 29 sentyabr 2020-ci ildə bütün siyasi partiyaların bir araya gəlməsi, vahid mövqedən çıxış etməsi xalq-dövlət həmrəyliyi ilə yanaşı, siyasi təfəkkürün formalaşmasından xəbər verdi. Birgə bəyanatda Ermənistanın işğalçı siyasəti şiddətlə qınandı, mülki əhalinin hədəfə alınması faktı insanlığa qarşı cinayət kimi qiymətləndirildi. Ermənistanın işğalçılıq siyasəti pisləndi, münaqişəni sülh yolu ilə həll etmək istəmədiyi, beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymadığı Azərbaycana qarşı daima ikili standartlar tətbiq edən beynəlxalq təşkilatların, keçmiş həmsədr dövlətlərin diqqətinə çatdırıldı. Siyasi partiyaların bəyanatı ölkənin taleyüklü məsələlərində bir yumruq şəklində birləşməyin, məsuliyyəti bölüşməyin təzahürü kimi təqdim etmək doğru olar. Milli məsələlərdə partiyaların bir mövqedən çıxış etmələri artıq ənənə şəklini alıb. Şuşa Bəyannaməsi də həmin ənənənin müsbət tərəflərindən qaynaqlandığını demək olar.

Bu hadisələr bir daha sübut edir ki, cəmiyyətimiz sağlamdır və bu mühitin yaranmasında dövlətimizin başçısı İlham Əliyevin müstəsna xidmətləri var. Sağlam düşüncəli insanların haqq və ədalət naminə şəxsi ambisiyalardan imtina etməsi və milli maraqlardan çıxış edərək vahid qüvvə halına gəlməsi gözləniləndir. Əlbəttə, dövlətimiz tərəfindən formalaşdırılan sağlam siyasi mühit, etimad və etibar cəmiyyətimizin iqtidar və müxalifət cəbhələrinə bölünməsinə mane olan ən böyük amillərdir. Əksini düşünənlər isə bizə yad, düşmən olan qüvvələrdir. İkinci Qarabağ müharibəsi cəmiyyətin birliyinə, bütövlüyünə, düşmənə qarşı bir yumruq kimi birləşməsinə etinasız qalan partiyalar isə ümummilli dəyərlərə sahib çıxmaq imtahanından kəsildilər. Tarixi məqamda siyasi dialoqdan uzaq duranların xalqın adından danışması isə absurddur. Birlik müvəqəti olmur, davamlı olanda isə ölkənin hərtərəfli inkişafı barədə düşünməyə əsas yaranır. 2020-ci ildən başlanan və siyasi partiyalarla dövlət qurumarı arasında dialoq mühitinin formalaşması ötən müddət ərzində bir sıra qürurverici hadisələrlə yadda qalıb. Bu gün elə siyasi partiya olmaz ki, hazırkı durumdan narazılıq etsin. Deməli, sağlam və anlayışlı dialoq üçün bir tərəfin yox, hər iki tərəfin bir-birinə doğru addım atması lazımdır.

Ötən həftə ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlərin işğaldan azad edilmiş torpaqlarımıza növbəti birgə səfəri cəmiyyətimizdə siyasi birliyin növbəti nümunəsi idi. Prezident Administrasiyasının təşkilatçılığı ilə baş tutan səfərə siyasilərin münasibətindən də görünür ki, sağlam əməkdaşlıq mühitinin formalaşması, habelə konstruktiv münasibətlərin bərqərar olunmasına xidmət edən layihə uğurla həyata keçirilib və Prezident İlham Əliyevin dövlət siyasətində bu kimi dəyərlərə üstünlük verməsi Azərbaycanın bütün mənalarda inkişaf perspektivlərindən xəbər verir. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasi dialoq mühitinin formalaşmasında Prezident İlham Əliyevin təşəbbüsünün önəmli rol oynadığını xüsusi olaraq vurğulayıb, həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib. Ölkənin bütün əsas siyasi partiyalarının Xankəndi şəhərindəki Zəfər meydanında bir yerdə toplanmasını siyasi tariximizin ən önəmli hadisəsi adlandıran Ə.Vəliyev bunu vətənpərvər qüvvələri birləşdirən əsas amil hesab edib. O, siyasi partiyalar arasında müzakirələrin və dialoqun cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarını ifadə etməsi üçün vacib olduğunu vurğulayaraq, bu prosesin Azərbaycan demokratiyasının inkişafına töhfə verəcəyini qeyd edib. Əlbəttə, partiyalar arasında dialoqun müsbət nəticələrə gətirəcəyi hər kəsdə əminlik yaradır.

2022-ci ilin dekabrında qəbul edilmiş ”Siyasi partiyalar haqqında” yeni Qanun ölkənin partiya sisteminin keyfiyyətcə daha böyük inkişafına zəmin yaradır, siyasi partiyaların ilkin imkanlarını tarazlaşdırır və partiyaların yeni siyasi konfiqurasiyanın formalaşması prosesində aparıcı instituta çevrilməsinə xidmət edir. Bu müsbət ənənə daha sıx şəkildə davam etdirilir, artıq siyasi mühitin yeni standartlara, yeni çağırışlara uyğun inkişafı üçün əsaslı zəmin formalaşıb. Qəbul edilmiş yeni qanun siyasi partiyaların fəaliyyətində əsaslı dönüş və inkişaf yaradıb. Siyasi dialoqun uğurla inkişaf etdirilməsi isə bu mənada xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanda fəaliyyət göstərən siyasi təşkilatların bir araya gəlməsi, məsələləri ”dəyirmi masa” arxasında müzakirə etməsi, problemlərin həlli istiqamətlərini birgə müzakirələr aparması bütün cəmiyyət tərəfindən dəstəklənir. Artıq ölkədə yeni siyasi konfiqurasiya formalaşıb. 2019-cu ilin noyabrında Prezident Administrasiyasında Siyasi partiyalar və qanunverici hakimiyyət ilə əlaqələr şöbəsinin yaradılmasından ötən dövr ərzində siyasi partiyalarla əlaqələr genişləndirilib, bir sıra partiyaların problemləri həll edilib. Bu prosesdə təbii ki, yeni yaradılmış şöbənin və onun rəhbərliyinin kifayət qədər əhəmiyyətli rolu var.

Xatırladaq ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə siyasi münasibətlər müstəvisində təşviq olunan sağlam siyasi dialoq mühiti çərçivəsində təşkil olunan bu səfər sayca beşincidir. Bundan öncə ölkə siyasilərinin, partiya rəhbərlərinin və politoloqların ilk birgə səfəri 2021-ci ilin martın 17-də Ağdam şəhərinə, ikinci birgə səfəri 2021-ci il oktyabrın 7-də Şuşa şəhərinə və və Zəngilana təşkil olunub.

*V.VƏLİYEV*



# Yel çərşənbəsinə...

MƏTANƏT

***Dedim, dedim, dedim, yazdım, yazdım, yazdım, gördəndə ki, faydası olmadı, üzümü tutdum Novruzaqədərki çərşənbələrdən birinə-Yel çərşənbəsinə. Hə, indi qulaq as mənə, Yel çərşənbəsi. Bəlkə sən dinləyəsən, bizim məhv etdiklərimizi sən qaytarasan...***

Dinlə məni, ey külək. Əs, əsrlər, illər öncəyə əs. Qarşına çıxan nə qədər unudulan adət-ənənələrimiz var, hamısını geriyə qaytar. Gəlsinlər, görsünlər ki, biz onların çoxunu torpağın altına gömmüşük. Ta indi evlərdə səməni cücərdən yoxdur, indi səməni cücərdib satanlar var, hamı hazır səməni alır.

Ta indi Novruzqabağı təmizlik işlərini də görən yoxdur: bağ-bağça təmizləyən, ev tökən, yorğan-döşəyi havaya verən, evin künc-bucağını dərindən təmizləyən, xalça, palaz çırpan, pərdə yuyub, asan yoxdur. Deyirlər, nə olub ki, hər yer tərtəmizdir.

Gəl, ey külək, bəlkə özünlə keçmişdən onu qaytarasan ki, çərşənbələrdə hər dəfə od yandırılar, hamı çıxardı dayanardı ocaq kənarında, deyib-gülərdi, çərşənbələri bayram ovqatı ilə qeyd edərdi. İndi hamı girib evlərə, oturub türk seriallarının qarşısında. Heç balkonlardan başını aşağı uzadan da yoxdur.

Gəl, ey külək. Gəl və özünlə o adətləri gətir ki, bayramda ölkənin bu başından o biri başına övladlar ata-ana əlini öpməyə, bayramlaşmağa gedərdilər. İndi haradadır o adətlər... Novruzda bir həftəlik tətildə çoxları istirahətini qoyub rayonlara-kəndəmi gedəcək? Deyirlər ki, görüntülü danışmaq nədən yanadır. Danışmışıq, bayramlaşmışıq da...

Gəl, ey külək, gəl, bu dövrün insanlarına danış ki, hər Novruzda insanlar qəbiristanlıqlara ölülərini ziyarətə gedərdilər. İndi unudulub çoxları tərəfindən o adətlər. Hətta ən yaxın qohumlara belə onlayn başsağlığı verənlər var. Telefon nə üçündür, deyənlər var. Uzaq yolu yaxın edən telefonlar....

Gəl, ey külək. Gəl, özünlə dünəndə qalanların çoxunu gətir. Gətir, görək ki, harada qaldı o gözəl bayramlar. Bayram günü gecə səhərədək evlərə torba atmalar, bayramdan pay alıb, sonra uşaqlarla birlikdə qatıb bölüşmələr...

Gəl, gətir, görsün hər kəs ki, bayramı bir vaxtlar necə qarşılar, necə yola salardılar. Milli geyimdə qızlarla, oğlanlarla. Xeyr, tədbirləri deyil, məhəllələrdə ocaq başındakı milli geyimli oğlan-qızları deyirəm. Saatlarla çalan-oynayan qonşuları, ocaq üstündən tullanıb ”ağırlığım-uğurluğum odlara!”,- deyən qonşuları deyirəm.

Gəl, ay külək, gəl, özünlə çərşənbələrin qayda-qanununu gətir. Ta açılmayan çərşənbə süfrələrinin vacibliyindən danış. Çərşənbələrdə restoranlarda bizə məlum olmayan yeməkləri yeyənlərə de ki, həmin günü adam öz evində olar, öz süfrəsi başında əyləşər. Danış ki, unudulmasın, o süfrələr, hər çərşənbə açılsın ki, Novruza hazır olsun.

Gəl, ey külək, gəl, özünlə əlimizdən zorla alınmış baharı da gətir. Elə əs ki, vur, uçur hündürmərtəbəli binaları, o binaları ki, onlar yüzlərlə ağacın kökləri üzərində ucaldılıb, baharı əlimizdən alıb. Gəl, bu yandan gir, o yandan çıx, gör kim alıb baharı əlimizdən, çırpıl üzünə, bu dünyanı o biri dünyaya apara bilməyəcəyini çırp üzünə. Anlat, anlasın ki, bu dünyanın malı burada qalır, o biri dünyaya gedə bilməz...

Gəl, ey külək, gəl ki, barı sən gəl. Gəl ki, heç olmasa, çərşənbələrin sıralanmasını unudanlara özünü göstər. Göstər ki, çərşənbələrdən Yel çərşənbəsi olduğunu unutmasın insanlar. Yoxsa halımız heç də yaxşı olmaz...

# Külək oyadan Yel çərşənbəsi




Bu gün sevindirici və qürurverici bir haldır ki, xalqımız Novruz bayramını işğaldan azad olunan ərazilərimizdə, əzəli torpaqlarımızda Bütöv Azərbaycanda qeyd edir. "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Artıq bir neçə ildir ki, Ulu Öndər Heydər Əliyevin söylədiyi fikirlər bir həqiqətə çevrildi. Tonqallarımız əzəli torpaqlarımızda - Bütöv Azərbaycanda qalanır, el-obamız bayramı sevinclə - Zəfər sevinci ilə qaşılayır. Qəlblərdə sevgi, torpaqda atəş yaşanır. İllərdir arzuladığımız və böyük məsləkimizə qovuşduğumuz torpaqlarımızda çərşənbəmizi qeyd edirik. Novruz ənənələri yenidən 30 ilə yaxın həsrətində olduğumuz doğma torpaqlarımızda yaşanılır, tonqallar qalanır, od-alov aləmə yayılır. Torpağımıza isti nəfəs gəlib, torpaq həsrətlə gözlədiyi sevincinə qovuşub. Torpaqlarımız dərindən nəfəs alır. Tarixdən boylanan zamanın daşlaşmış yaddaşında olan təbiətdən gələn yeni günü Qələbə tarixini yaşamış xalqımız böyük sevinclə qarşılayır. Artıq Novruz bayramının astanasındayıq. Minilliklərin sınağından çıxaraq, bu günə gəlib çatmış Novruz bayramını hələ Azərbaycan xalqı Sasanilər dövlətinin tərkibində olduğu zaman qeyd edib. Daş dövrünə aid olan əşyalar qazıntılar zamanı əldə olunan mənəvi mədəniyyət abidələrimiz Novruz bayramının qədim tarixi olduğunu təsdiqləyən amillərdir. Azərbaycan klassikləri olan Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Əfzələddin Xaqani kimi dahilərimiz baharın gəlişini əks etdirən nümunələr yaratmışlar. Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan Nizamilmülkün "Siyasətnamə"sini, Ömər Xəyyamın "Novruznamə"sini və başqalarını nümunə olaraq göstərmək mümkündür.

## "HƏR BİR AZƏRBAYCANLI ÜÇÜN ƏN ƏZİZ, ƏN DOĞMA, ƏN SEVİMLİ BAYRAM NOVRUZ BAYRAMIDIR"

"Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Hər xalqın tarix boyu yaranmış və ənənəyə çevrilmiş bayramları vardır. Azərbaycan xalqının da bayramları vardır. Bunların bir qismi dövlət bayramlarıdır, bir qismi xalq, din bayramlarıdır. Bütün bu bayramların içərisində millətimiz üçün, xalqımız üçün, hər bir azərbaycanlı üçün ən əziz, ən doğma, ən sevimli bayram Novruz bayramıdır", - deyə Ulu Öndər Heydər Əliyev bildirmişdir. Bəli, xalqımızın milli-mənəvi irsini özündə təcəssüm etdirən Novruz yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramıdır. Novruz fəlsəfəsi cəmiyyətdaxili münasibətləri tənzimləyən, insanlar arasında səmimiyyəti, dialoqu önə çəkən yüksək dəyərləri ehtiva edir. Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadır. Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş su, od, yel və torpaq çərşənbələri qeyd olunurdu. Xalqın ərkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Dörd çərşənbənin qeyd olunmasının arxasında həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Novruz bayramı təbiətlə bağlı su, od, torpaq, yel ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir. Novruzaqədərki yaxın 4 həftənin 2-ci günlərini-çərşənbələri ulularımız Su, Od, Yel və Torpaq Çərşənbəsi adlandırmışlar. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır.

Martın 11-i Azərbaycanda Novruzun üçüncü çərşənbəsi olan Yel çərşənbəsi qeyd edilir. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Yelli çərşənbə" adı ilə də tanınan Yel çərşənbəsi dörd yaradılış ünsüründən biri olan havanın həyatverici gücü ilə bağlıdır. Deyilənə görə, Yel çərşənbəsi əsən külək təzəcə çıxmış otları oyadaraq, Novruzun gəlişi barədə xəbərdar edir. Novruz ənənələrinə nəzər saldıqda görürük ki, tarixin müxtəlif dönəmlərində yazın gəlişini tezləşdirmək üçün Yel babanı nəğmə ilə çağırarmışlar:

A Yel baba, Yel baba,
Tez gəl, baba, gəl, baba.
Sovur bizim xırmanı,
Atına ver samanı.
Dən dağılıb dağ olsun,
Yel babamız sağ olsun.
A Yel baba, Yel baba,
Qurban sənə, gəl baba.

## MÜRGÜLƏYƏN KÜLƏK OYANIR

Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürmək olmazdı. "Sovurulmamış buğda götürənin oğlu ölər, xırman sovurulandan sonra ilk buğda götürənin isə oğlu olar", - deyərdilər. Yel çərşənbəsi günündə isə əsən isti küləklər yazın gəlişindən xəbər verir. Yel çərşənbəsinin geniş yayılmış inanclarından biri də bu çərşənbədə niyyət tutulmasıdır. Çərşənbə gecəsi söyüd ağacının altına gedib niyyət edər və Yel babanı çağırardılar. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetəcək. Yel çərşənbəsinin ayinlərindən biri də həmin gün həyətlərdə yelləncəklərin qurulması və oğul-uşağın, qız-gəlinin yelləncəklərdə yellənməsidir. Dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel babanın şərəfinə xüsusi mərasimlər keçirilir, ayinlər icra olunur. Əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində küləyin bir neçə dəfə dəyişməsi əslində küləyin, havanın təmizlənməsi, yenilənməsi kimi qəbul edilir. Bu çərşənbəyədək sanki mürgüləyən külək oyanır, aləmi dolaşaraq suyu, odu hərəkətə gətirir. Təbii ki, inanclara görə, təbiətdə ən son oyanış torpağa aiddir. Torpağın oyanması ilə həyat yenidən dirçəlir. Yel çərşənbəsi yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Folklorşünasların qənaətinə görə, torpaq və su yaradılışın maddi əsasını təşkil edirsə, od və yel kənar vasitəçi, təkanverici statusunda çıxış edir. Yaradılış mifologiyasında torpaqla suya daha çox stabillik, yellə oda isə dinamiklik, hərəkət xasdır. İnanclara görə, çərşənbə axşamları Tanrı ancaq xoş sözləri eşidir. Belə ki. Yel çərşənbəsində Yel dağına ziyarətə gedərlər. Yel çərşənbəsində ağaclar oyanar. Yel çərşənbəsində söyüd ağacının altından keçərlər ki, niyyətin qəbul olsun. Yel çərşənbəsində Yel Babanı köməyə çağırarlar. Yel çərşənbəsində yelləncəkdə yellənərlər. Bu müqəddəs axşamlarda əllərimizi ulu Tanrıya uzadıb ona dua edək. Çərşənbəmiz mübarək!

*Zümrüd BAYRAMOVA*



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Paşinyan sülh üçün tələsmir, fürsət gözləyir...

Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan əleyhinə qeyri-səmimiliyini bütün çılpaqlığı ilə ortaya qoymağa davam edir. Ənənəvi erməni hiyləgərliyi ilə "silahlanan" Nikol Vavayeviç növbəti dəfə regionda sülhün əldə edilməsinə maraqlı olmadığını nümayiş etdirib. Özü də birbaşa öz imzası ilə. Erməni baş nazir fevralın 10-da "Armenpress" xəbər agentliyində dərc olunmuş məqaləsində faktları və həqiqətləri təhrif etməklə əslində Ermənistan hakimiyyətinin əsl mahiyyətini də üzə çıxarıb. N.Paşinyan, bu məqalədə regional proseslərə və Qərbi Azərbaycan mövzusuna dair yanlış, əsassız və zərərli fikirlər yazmaqla ənənəvi erməni siyasətindən də əl çəkmədiyini nümayiş etdirib.

Erməni baş nazirin ölkəsinin mətbuatında öz imzası ilə təxribat və təhrif dolu "faktlarla" çıxış etməsini 10 noyabr sənədindəki müddəalarla daban-dabana ziddiyyət təşkil etdiyini deyib. M.Salahov qeyd edib ki, Ermənistan Azərbaycanla konstruktiv münasibətlər qurmaq və regional kommunikasiya və iqtisadi əlaqələr qurmaq üçün ilk növbədə ölkəmizə qarşı ərazi iddialarına son qoymalıdır.

"Çünki bu ölkənin konstitusiyasında və digər hüquqi sənədlərdə ölkəmizə qarşı ərazi iddiaları hələ də qüvvədə qalır. Azərbaycan rəsmi səviyyədə bununla bağlı dəfələrlə xəbərdarlıq edib. "Armenpres"dəki yazısında N.Paşinyan Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair 1991-ci ildə imzalanmış Alma-Ata Bəyannaməsinə və 2022-ci il Praqa razılaşmasına istinad edir. Lakin məhz 1991-ci il Alma-Ata Bəyannaməsinin imzalanmasından sonra Ermənistan Azərbaycana qarşı genişmiqyaslı işğalçı siyasət həyata keçirib. Təkcə bu fakt rəsmi İrəvanın bu gün Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı qeyri-səmimi olduğunu təsdiqləyir. Əgər Ermənistan həqiqətən səmimidirsə, o zaman konstitusiyasından və digər qanunlardakı ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəaları çıxarmalıdır. Bunun üçün şəxsən N.Paşinyan hansısa diqqət çəkən ciddi addımlar atırmı? Qəti olaraq yox! Axı bu necə ola bilər ki, özünü sülhsevər kimi göstərməyə çalışan bir hakimiyyət başçısı öz ölkəsinin konstitusiyasında beynəlxalq hüquqa zidd olaraq başqa abir ölkənin ərazi bütövlüyünə iddia edən maddələriBelə sənədlərin qüvvədə qalması gələcəkdə Azərbaycana qarşı ərazi iddiası üçün istifadə oluna bilər. Ona görə də Azərbaycanın bu şərti mütləq yerinə yetirilməlidir.

## "Erməni baş nazir Sülh Müqaviləsi barədə danışıqları uzatmaqla Tramp - Putin tandemindən yeni "şans" gözləyir"

Bundan başqa, bu gün baş verənlər açıqca göstərir ki, N.Paşinyan hakimiyyəti özünü "sülh göyərçini" kimi təqdim etməklə ikili siyasətini davam etdirir. Əgər hazırkı Ermənistan hakimiyyəti elan etdiyi kimi doğrudan da Azərbaycanla sülh əldə etmək istəyirsə, onda bunun üçün mütləq real addımlar atmalıdır. Həmin real addımlardan əsər əlamət varmı?qətiyyən! Onlar Azərbaycan əleyhinə təxribatları dayandırmalı, yüz cür cəfəng bəhanələr gətirmədən sülh müqaviləsini imzalamalı, Azərbaycanla sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə mane olmamalıdırlar. Bunlar baş verirmi? O da qətiyyən! Bütün bu sadaladıqlarımın əvəzinə erməni tərəfi müxtəlif beynəlxalq platformalarda manipulyativ çıxışlar edərək məsuliyyətdən yayınmağa çalışırlar.

Bundan başqa qeyd ediləsi daha bir məqam var. Axı tarixi ədalətin bərpası təkcə qayıdışla yekunlaşmır, həmçinin mədəni irsin qorunmasını da əhatə etməlidir. Ermənistan ərazisində azərbaycanlılara məxsus yüzlərlə məscid, qəbiristanlıq, tarixi abidə və digər mədəni irs nümunələri məhv edilib və ya təhqir olunub. Halbuki, mədəni irsin qorunması təkcə beynəlxalq humanitar hüququn deyil, eyni zamanda, fundamental insan hüquqlarının bir hissəsidir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində mədəni hüquqların, yəni, insan yaradıcılığının müxtəlif formalarının qorunması və inkişaf etdirilməsi əsas prinsiplərdən biri kimi qəbul edilib. Ermənistan qayıdış prosesi baş verməzdən əvvəl, qayıdış zamanı və sonrakı dövrdə bu hüquqların təmin olunması üçün konkret addımlar atmalıdır. Bütün bu sadaladıqlarımın gerçəkləşməsi üçün bircə addım atılırmı Ermənistan hakimiyyəti tərəfindən? Qətiyyən!

İndi N.Paşinyan Ukrayna-ABŞ gərginliyi və Vladimir Putin - Donald Tramp yaxınlaşması fonunda yaranan yeni siyasi situasiyada özü üçün yeni şanslar gözləyir. Hazırkı Ermənistan hakimiyyəti üçün "xaç atası" kimi tanınan Emmanuel Makronun Ağ Ev-də heç adam yerinə qoyulmaması da erməni baş naziri ciddi narahat edir. Çox güman ki, Sülh Müqaviləsi barədə danışıqları uzatmağa çalışan N.Paşinyan D.Tramp - V.Putin tandemindən yeni "şans" gözləyir. Həmişə olduğu kimi, ənənəvi erməni hiyləgərliyi...

# “Bahar bayramı çox qədim zamanlarda yaranıb”



“Dünyanın bütün xalqlarında baharın gəlişi, yaz-tarla işlərinə başlanması münasibəti ilə şənliklər keçirilir, bayram süfrələri açılır, bayram qeyd edilir. Bahar bayramının adı müxtəlif xalqların dilində müxtəlif formalarda səsləndirilsə də, eyni məzmun və məna daşıyır. Məsələn Rusiyada -Pasxa- Maslennitsa, Hindistanda-Xolu, Çuvaşiyada- Akatuy, Udmurtiyada-Qerber, Monqolustanda-Tsaqan-sar, Tatarstanda-Sabantuy, Bolqarıstanda-Kukers, Sloveniyada -Kukerti, Çexiyada-Voraçki, Ukraynada-Malakanda, Moldaviyada-Puluquşorul və s.”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov deyib.






O, bildirib ki, bahar bayramı çox qədim zamanlarda yaranıb, əkinçilərin və maldarların yaz-tarla işlərinə başlamaları ilə bağlı olub: ”Qış ayları bitdikdən sonra, dünya xalqları arasında bol məhsul əldə etmək üçün, yaz tarla işlərinin başlamasının təntənəli şəkildə qeyd olunması ilə bağlı olmuşdur. Bəzi xalqlarda ilk şum şırımının açılması təntənəsi bayram kimi icra olunub. Çində, Taylandda, Dağıstanda ilk şum şırımı bayramı xüsusi təntənə ilə bayram edilib. İlk şum şırımı ilk əvvəl obanın ağsaqqalı tərəfindən həyata keçirilib, sonra bu fəaliyyəti gənclər davam etdirir və ilk şuş şırımı bayram kimi qeyd olunmağa başlayırdı.

## Dağıstanda ilk şum (bahar) bayramı

Qədim Misir, Avropa və Asiyanın məhsul bayramları, burada yaşayan xalqların və dinlərin fərqli olmasına baxmayaraq ümumi bir qədim ənənənin varisləridir. Qədim insanlar üçün ilin əsas bayramı yaz dövrünə təsadüf edirdi və yeni ilin başlanması kimi qeyd olunurdu. Daha çox maraq kəsb edən məsələlərdən biri odur ki, qədim adət-ənənələrin bir çox elementləri tamamilə fərqli xalqlar arasında üst-üstə düşür. Bayram ənənələri dinlərin və xalqların fərqli olmasına baxmayaraq uyğunluq təşkil edir.

Qədim zamanlarda məhsuldarlıq, torpaq, yağış və külək tanrılarına bağlı olduğu düşünülsə də, insan həyatının inkişafında suvarma sistemlərinin yaranması ilə əkinçiliyin genişləndirilməsi, iribuynuzlu mal-qaranın əhliləşdirilməsi də böyük əhəmiyyət kəsb edirdi. Şumlamada istifadə olunan yararlı ev heyvanlarının yetişdirilməsi, həm də maldarlığın inkişaf etdirilməsinə səbəb olmuşdu.

Arxeoloji, ikonoqrafik və qismən yazılı mənbələr göstərir ki, əkinçilikdə ev heyvanlarının gücündən istifadə edilməsi eramızdan əvvəl Mesopotamiyada və Nil vadisində IV minilliyin sonu - III minilliyin əvvəllərində istifadə olunmağa başlanmışdı. Hər il də əkinçiliyin başlanmasının ilk günü bayram kimi qeyd edilirdi.

Sonradan bu texnologiya tədricən Qərbdən Şərqə, Qərbi və Orta Asiyadan keçərək Şimali Hindistana və hətta daha da irəliyə gedərək Şimali Çinə yayıldı, burada Sarı çay hövzəsində eramızdan əvvəl I minillikdə qeyd edildi. Amerikanın yerli hindu əhalisi avropalılar gələnə qədər heç vaxt əkinçiliklə məşğul olmamışdılar.

## Akatuy- Çuvaş xalqının bahar bayramı

Akatuy bayramını Çuvaş xalqı yaz-tarla işlərinin başlaması günü qeyd edirlər. Bu bayram özündə bir sıra təntənəli mərasimləri birləşdirir. Köhnə Çuvaş həyat tərzində Akatuy bayramı yaz-tarla işləri başlayanda başlanır və yazlıq bitkilərin əkilməsi bitdikdən sonra başa çatırdı. Bayrama hazırlaşanlar qohum-qonşuya xəbər edər, kiçik daxmalarda masa üzərində zəngin süfrə düzəldirlər. Süfrənin (masanın) ortasına xüsusi naxışlı dəsmalın üzərinə çörək və dairəvi pendir olan qab qoyurlar.

## Gerber - Udmurt xalqının bahar (şum) bayramı

”Gerba” sözü, ”böyümək, yaşıllaşmaq” mənasını verir. Torpaq oyanan vaxtı Udmurtların inancına görə yaşıllıqları məhv etmək, meşədə ağacları qırmaq, budaqların tumurcuqlarını əzməyi günah hesab edərdilər. Udmurt inancına görə Gerber gəldiyi vaxt səmavi rütubətin məşuqəsi İnvozho-muma göydən enib otların içinə yerləşirdi ki, məhsul bol olsun ona görə məhsul yığımına qədər bitkilərə toxunmaq olmazdı.

## Sabantuy-Tatar xalqının ilk şum (bahar) bayramı

Sabantuy tatar xalqının mənşəcə bahar bayramıdır. Sabantuyda ənənəvi əyləncə iştirakçıların şaquli dirəyə dırmaşma yarışı keçirirlər. Yarış iştirakçıları qollarını və ayaqlarını dirəyə sarıyaraq, bütün bədənləri ilə ağaca sarılaraq kimin daha tez ağacın zirvəsinə qalxa biləcəyini öyrənmək üçün yarışdılar. Bayramda şaquli basdırılan sütun, rəngli bayraqlar və ya lentlərlə bəzədilir.

## İsıx-Yakut xalqının bahar bayramı

Yakutiyada iyun ayının 20-də ”İsıx” adlı bahar bayramı yəni yazın gəlişi qeyd olunur. Bayramdan üç gün öncə əhali ayın 20-də günəşin çıxmasını görmək üçün meşəyə çadırlarda yaşamağa köçürlər. Ticarətçilər öz satlıq mallarını səyyar çadırlarda yerləşdirib alverlərini səyyar çadırlarda edirlər. Əhali bayram libasında gəzir, deyirgülür, yeyir-içir şənlənirlər. Kiçik meydanlarda musiqiçilər folklor musiqiləri və mahnıları ifa edirlər. İsıxda heyvan içalatı farş edilib müxtəlif ədviyyalar vurulur inəyin bağarsağına doldurulur hər metrdən bir iplə bağlanır sonra böyük qazanlara yığaraq qazanı suyla doldurub qaynadırlar. Yemək hazır olanda ətlə dolu bağarsaları qazandan çıxarıb kiçik hissələrə bölərək paylaşaraq yeyir üstündən kımıs içirlər. Hər kəs üzü şərqə tərəf dayanıb günəşin çıxma anını səbirsizliklə gözləyirlər.

Yakutyada günəşin doğulmasının qarşılanması önəmli mərasim hesab olunur. Günəş üfüqdən boylanarkən hamı əlini qaldırıb dua edir, arzularını bildirir, uşaqlar çığırışaraq səs salırlar. Şamanlar dəf çalaraq ucadan oxuyur, ilin bərəkətli olması üçün dualar edirlər”.

**Söylü Ağazadə**



# Əcnəbilərlə evlilik halları niyə artır?

**Elçin Bayramlı**

Qloballaşma, o cümlədən artan miqrasiya prosesləri və internet sayəsində tanışlığın asanlaşması sayəsində əcnəbilərlə evliliklərin coğrafiyası xeyli genişlənib. Əcnəbilərlə evlənmələrin sayı bütün ölkələrdə artan xətlə gedir, lakin hər ölkənin, cəmiyyətin bunda öz səbəbləri və öz yanaşmaları var. Bəzi məlumatlara görə, Avropa İttifaqında qarışıq nikahların sayı artıq 40 faiz həddini keçib.

Son dövlər Azərbaycanda əcnəbilərlə nikah bağlanması halları artıb. Ötən il Azərbaycanda 2144 belə nikah qeydə alınıb. Vətəndaşlarımız daha çox Rusiya, İran, Türkiyə, Gürcüstan və Ukrayna vətəndaşları, o cümlədən başqa ölkədə doğulmuş və ya köçüb orada vətəndaşlıq almış etnik azərbaycanlılarla ailə qururlar. Türkiyə və İran vətəndaşları çox vaxt dil və mədəniyyət yaxınlığına, ortaq dinə, adət-ənənəyə, ortaq dəyərlərə görə seçilir. Amma çoxları avropalılar, amerikalılar və bəzi Asiya ölkələrinin sakinləri ilə də ailə qurmaqda maraqlıdır. Bunun üçün daha çox internetin, xüsusən sosial şəbəkələrin imkanlarından istifadə edilir.

Bəziləri həqiqi sevgi yarandığı üçün buna qol qoyur. Amma bu yolla miqrasiya etmək və ya maddi vəziyyətini yaxşılaşdırmaq istəyənlər daha çoxdur. Lakin burada bir sıra problemlər də yaranır. Fərqli psixologiya, adət-ənənələr, dil bilmək məsələsi, mədəni uyğunluq, təhsil və iş bacarığı kimi şərtlər var.

Müxtəlif məqsədlər üçün saxta evliliklərin sayının artması nəticəsində son vaxtlar bir çox ölkələr beynəlmiləl cütlüklərin həqiqi ailə olub-olmadığını diqqətlə yoxlayır. Yeri gəlmişkən, Azərbaycanda qeyri-qanuni mühacirlərin burada qalmaq üçün vətəndaşlarımızla bağladıqları saxta nikahların sayı da artıb. Qanunsuz miqrasiya ilə mübarizə məqsədilə Milli Məclis ötən il Ailə Məcəlləmizə dəyişiklik edən qanun layihəsini təsdiqləyib. Azərbaycan ərazisində qeyri-qanuni yaşayan və ya vətəndaşlığı olmayan şəxslər də aralarında nikaha icazə verilməyən şəxslərin siyahısına əlavə edilib.

Azərbaycanlılar da xarici ölkələrdə yerləşmək üçün saxta nigahlara tez-tez əl atırlar. Belə ”ailə”lərin ömrü uzun çəkmir, sonra isə bir sıra hüquqi və mənəvi problemlər meydana çıxır. Əvvəllər bizdə, əsasən xaricdə işlə bağlı daimi və ya müvəqqəti yaşayan kişilər əcnəbi qadınlarla ailə qururdular. Son vaxtlar Azərbaycanda əcnəbilərlə ailə bağlarını əsasən qadınlar qurur. Kişilər böyük əksəriyyəti öz millətinin nümayəndələrini seçməyə üstünlük verir.

Getdikcə daha çox azərbaycanlı qadının əcnəbiləri həyat yoldaşı kimi qəbul etməsini birmənalı olaraq müsbət tendensiya adlandırmaq olmaz. Sözsüz ki, əgər bu ailə sevgi üzərində qurulursa problem yoxdur. Lakin müşahidələr göstərir ki, bu kimi ailələrin maksimum 20%-I mənəvi dəyərlər üzərində qurulur. Əksəriyyətində səbəb maddi maraqlar və ya şəxsi həyatları üçün yaranacaq yeni imkanlardır.

Bundan başqa, bizdə kişilərin evlənmək istəmədiyi yüngül əxlaqlı qadınlar da həyat yoldaşını əcnəbilər arasından seçir, çünki bir çox ölkələrin vətəndaşları üçün bunun heç bir fərqi yoxdur. Bizdə isə, kişilərin hamısı həyat yoldaşı seçərkən ilk növbədə onun mənəvi-əxlaqi keyfiyyətlərinə fikir verir.

Əcnəbilərlə evliliklərin həm mənfi, həm də müsbət tərəfləri var. Üstünlük ondan ibarətdir ki, qarışıq ailələrdə uşaqların müxtəlif adət-ənənələri mənimsəmək və bir neçə dil öyrənmək imkanı olur, onlar fiziki sağlamlığı və yaradıcı istedadları daha çox olur. Qan qarışır, mədəniyyətlər birləşir və bəşəriyyət bir-birinə inteqrasiya edir.

Mənfi tərəflər isə ondan ibarətdir ki, maddi maraqlara əsaslanan əcnəbilərlə evliliklərin əksəriyyəti adətən dağılma ilə nəticələnir. Burada insan alverinin qurbanına çevrilmək təhlükəsi də var. Qadınlar xüsusilə diqqətli olmalı və qarşı tərəfi mümkün qədər yaxşı tanımağa çalışmalıdırlar.

Beynəlmiləl nikahların sayının artmasına təsir edən amillərdən biri də sosial-iqtisadi problemlərdir. Bu gün ölkəmizdə kişilərin əhəmiyyətli bir hissəsi iş tapa bilmir və ya aşağı maaşla işləməyə məcburdur. Onlar mənzil ala bilmirlər, ailələrini noprmal dolandıra bilməyəcəklərini başa düşür və nəticədə ailə qura bilmirlər. Qadınların böyük əksəriyyəti isə maddi imkanları olan kişilərlə, o cümlədən varlı əcnəbilərlə evlənməyə çalışır. Təəssüf ki, bu gün mənəvi dəyərlərə getdikcə daha az əhəmiyyət verilir.

Azərbaycan kişiləri daha çox işlə bağlı başqa ölkədə yaşayarkən əcnəbi qadınlarla ailə qururlar. Bəziləri bunu sevgi, bəziləri isə orada məskunlaşıb vətəndaşlıq almaq istəyi ilə edir. Birinci halda bu xoşbəxt ailə modelinə çevrilir. İkinci halda bu ailə müvəqqəti xarakter daşıyır.

Əgər ölkəmizdə bütün sosial-iqtisadi və mənəvi-psixoloji problemlər aradan qaldırılarsa, əcnəbilərlə nikahların çoxu əsl sevgi ilə bağlanacaq və təbii olaraq onların sayı azalacaq.

SORĞU

# "Bütün əsas siyasi partiyaların bir yerdə toplanması..."

***Məlumdur ki, ötən günlərdə ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər növbəti birgə səfər çərçivəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə martın 6-da Xankəndi, Əsgəran və Xocalıya yola düşüblər. SİA mövzu ilə bağlı səfərdə iştirak edən politoloq Züriyə Qarayeva və Aytən Qurbanovanın fikirlərini öyrənib.***





**Politoloq Züriyə Qarayeva:** "2020-ci ildə Vətən müharibəsindəki qələbə ilə suverenlik bayrağını göylərə qaldıran ölkəmiz, bu gün təkcə torpaqlarını deyil, siyasi arenada birliyini də zəfərlərlə bəzəyir. Prezident İlham Əliyevin qətiyyəti ilə başlayan bu yeni səhifə, hərbi gücümüzün möhtəşəm təsdiqi ilə yanaşı, artıq siyasi dialoqun səsiylə də yazılmağa davam edir. Xankəndi, Xocalı və Əsgərana səfər edən siyasi partiya liderlərinin birgə addımları, bu prosesin ürəkaçan sübutudur. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması isə qalibiyyətin daha mühüm, konstitusion nəticəsidir-Azərbaycanın öz gücünü dünyaya bir daha göstərəcəyi anın ifadəsidir.

Xankəndidə partiya rəhbərlərinin görüşü, əslində bir yumruq kimi birləşən Azərbaycanın simvoludur. Bu, sadəcə səfər deyil, keçmişin yaralarını sağaldıb gələcəyə ümidlə baxan bir xalqın manifestidir. Çox az müddət bundan əvvəl Xankəndi meydanında ölkəmizi parçalamış, xalqımızın qanına susamış separatçıların səsi eşidilir, qondarma parad oyunları təşkil edilir, əzəli-əbədi yurd yerlərimizdə bizə gözdağı verirdilər. Bugün Xankəndi meydanı elə bir rol oynayır ki, siyasi dialoq burada soyuq protokollardan çıxıb, isti bir həmrəylik səhnəsinə çevrilib. Əsgəranın daşlarında tarix, Xocalının torpağında ədalət, Xankəndidə isə qürur var - və bu üçü birləşərək Azərbaycanı yenidən doğulmuş bir ulduza çevirir, Bakıda isə Xankəndi meydanında bir zamanlar cığallıq edən düşmən terrorçuları ədalət mühakiməsi qarşısında cavab verirlər.

Xocalının bərpa olunan evləri, Xankəndinin turizm xəyalları - bunlar suverenliyin sadəcə xəritədəki xətlər deyil, həyatda nəfəs alan bir reallıq olduğunu göstərir. Dialoqla toxunan bu zəfər, Azərbaycanı təkcə regionun lideri deyil, həm də birlik dərsi verən bir ölkə edir.

Prezident Administrasiyasından Ədalət Vəliyevin "vətənpərvərlik və dövlətçilik bizim təməlimizdir" sözləri, bu hərəkatın kökünü, özülünü açıqlayır. Siyasi partiyalar ölkənin, ortaq məqsədə - Azərbaycanın yüksəlişinə xidmətə qoşulublar.

Yeni siyasi mədəniyyət başqa formada bu dialoqla özünü būruzə verməkdədir.

Azad torpaqların nəqliyyat coğrafiyası da çox qəribə bir formadadır, yollar siyasi coğrafiyanın xəritəsini yaşadaraq, qalibiyyəti hiss etdirir, Xocalıya həyat qayıdır, Xocavəndin fatehlərinin "əl işləri" yaxın keçmişin qürururun bir daha oyadır, Şuşada Qarabağ tarixinin zirvəsinə şahid olduqdan sonra mütləq bu mühüm marşrut dövlətimizin baş planında tamamlanmalıdır. Xankəndi - Qarabağ xanlarının evi, yurdu, 300 illik tarixin qısa mündəricatı, erməni millətçiliyinin vurduğu yaralar və nəhayət, qalibiyyətin gətirdiyi təntənə. Burada artıq gənclik, uşaqlar, təhsil, elm, universitet-bir sözlə, qaynar həyat müşahidə edilməkdədir. Qarabağın azadlığı bizim Suveren azadlığımızı əbədiyyən təsis etmiş oldu.

Xankəndi səfərindən sonra siyasi liderlərin dilindən düşməyən möhtəşəm fikirlər, təəssüratlar Azərbaycanın pozitiv gündəmini təşkil edir. 2025-ci il bu dirçəlişin adıdır-Konstitusiyamızın qüruru və birliyimizin coşqusu ilə! Xankəndidən Xocalıya uzanan bu yol, təkcə torpağın deyil, ruhumuzun da azadlığıdır. Bu səfərlər, keçmişin izlərini silmədən, üzərinə gələcəyin planlarını çəkir. Suverenlik ili bizə bir dərs verir: birliyimizlə hər daşı yerindən oynada bilərik!".

**Politoloq Aytən Qurbanova:** "Azərbaycan Respublikasının vətəndaşı olmağın verdiyi haqlı qürurla suverenlik və konstitusiya ilimizi qeyd edirik. Hər bir dövlətin tarixinin ən önəmli mərhələsinin, gücünün və qüdrətinin zirvəsini yaşadığı dövrün canlı şahidləri olduğumuz üçün çox şanslıyıq. Xüsusilə də, son beş ildə əldə etdiyimiz nailiyyətlərə nəzər yetirdikdə aydın şəkildə müşahidə etmək mümkündür ki, qlobal güclərin əsrlər boyu formalaşdırdığı ədalətsiz prinsiplərlə mübarizə apararaq təkbaşına bu zirvəyə qalxa bilmək heç də hər dövlətin əldə edə biləcəyi nailiyyət deyil.



Cənab Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında təkbaşına apardığımız ədalət mübarizəmizdə 44-günlük Vətən müharibəsinin tarixi zəfərimizlə nəticələnməsi və ərazi bütövlüyümüzün bərpa olunması buna bariz nümunədir. Ali Baş Komandanın uzaqgörən diplomatiyası və qətiyyətli mövqeyi, ordunun yüksək döyüş qabiliyyəti, müasir silahlanma, şəxsi heyətin vətənpərvərlik ruhu və xalq-dövlət birliyi qələbəmizi şərtləndirən başlıca xarakterik xüsusiyyətlər hesab oluna bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın müharibədəki qalibiyyəti, yalnız ölkəmizin siyasi və hərbi qüdrətinin simvolu deyil, həm də regionda sülhün və ədalətin bərpa olunması istiqamətində əldə edilmiş müstəsna əhəmiyyətə malik uğurdur. Eləcə də, hərbi və diplomatik cəbhədə qazanılan üstünlüklərlə Azərbaycanın beynəlxalq aləmdəki mövqeyi də gücləndi. Cənab Prezidentin uğurlu xarici və daxili siyasətindəki uyğunluq ölkəmizin sabitliyinin və inkişafının əsas zəmanəti oldu. Təbii ki, bu nailiyyətlər fonunda atılmış addımlar ölkədəki siyasi mühitə də təsirsiz ola bilməzdi.

Dövlət başçımızın təşəbbüsü ilə son beş ildə görülən işlər buna bariz nümunədir. Artıq müxtəlifliklərə baxmayaraq tərəflərin bir-birini dinlədiyi və ortaq hədəflər naminə konstruktiv əməkdaşlığın hərkəs tərəfindən dəstəkləndiyi yeni münasibətlər sistemi formalaşdırılıb. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə yaradılmış dialoq masası siyasi partiyalar arasında fikir mübadiləsinin aparılmasının və qarşılıqlı anlaşmanın əsasını qoyulmasında mühüm addımdır. Ümumiyyətlə, siyasi partiyalar arasında qarşılıqlı anlayış yaratmaq üçün açıq və səmimi dialoq vacibdir. Bu, hər iki tərəf üçün müsbət nəticələrə gətirib çıxara bilər. Bütün bu addımların əsas hədəfi isə dialoqdan daha irəli gedərək konkret məsələlərdə konstruktiv əməkdaşlığa nail olmaqdır. Bu cür əməkdaşlıq siyasi partiyaların xalqa və dövlətə xidmət edərək cəmiyyətin rifahını prioritet olaraq qəbul etməsinə kömək edir. Hər partiya öz təkliflərini irəli sürsə də, əsas məqsəd xalqın rifahıdır və dövlətçiliyin qorunmasıdır. Ona görə də, siyasi platformada dialoqun dərinləşdirilməsi imkanlarının təşviq edilməsi və birgə fəaliyyət nümunəsi olaraq müxtəlif layihələrin həyata keçirilməsi artıq ənənə halını alıb və bu ənənə qarşılıqlı etimadı möhkəmləndirən bir çox amilləri özündə ehtiva efir. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların rəhbərlərinin, tanınmış politoloqların və media nümayəndələrinin birgə iştirakı ilə işğaldan azad olunmuş bölgələrə səfərlərin təşkil olunması da məhz bu ənənəvi addımlar sırasında önəmli xarakter daşıyır. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşəbbüsü ilə 6 mart tarixində Əsgəran, Xocalı və Xankəndinə təşkil olunmuş növbəti - altıncı səfər də məhz bu ənənənin davamı olaraq mühüm əhəmiyyət kəsb edir. Ölkədə fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, tanınmış politoloqların və media nümayəndələrinin iştirakı ilə Əsgəran, Xocalı və Xankəndinə təşkil olunmuş bu səfər çərçivəsində Əsgəran qala kompleksini ziyarət etmək, Xocalı Soyqırım memorialında görülən işlərlə tanış olmaq imkanı yaradılıb. Həmçinin Xankəndidə olan siyasilər Müzəffər Ali Baş Komandanın rəhbərliyində Zəfər paradının keçirildiyi meydanda olublar. Zəfər meydanında Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev iştirakçıların qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı surətdə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında məlumat verdi. Administrasiya rəsmisi qeyd etdi ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilməlidir.

İstisnasız olaraq qeyd edə bilərik ki, birlik və bərabərliyin simvolu olan bu səfərin önəmi kifayət qədər böyükdür. Cənab Prezidentin təşəbbüsü ilə əsası qoyulmuş yeni siyasi münasibətlər sisteminin dövlətçilik və milli maraqlarımızın müdafiəsi naminə fərqliliklərin ortaq hədəflərə çevrilməsini təşviq etdiyinin bariz nümunəsidir. İyirmi dörd siyasi partiyanın rəhbərlərinin Zəfər meydanında olmasının verdiyi mesajların əsas mahiyyəti də məhz ondan ibarət idi ki, belə konstruktiv əməkdaşlığın və dialoqun olduğu mühitdə dövlət maraqlarını hər zaman şəxsi ambisiyalardan üstün tutmağı bacaranlar ola bilər. Bu da etibarlı tərəfdaşlığı şərtləndirən ən vacib xüsusiyyətdir".

***Ayşən Vəli***

# Tacikistan-Qırğızıstan qarşıdurması narahatlıq yaradır

**Dünyada yeni müharibələr qızıl, uran, neft, qaz uğrunda deyil, şirin su hövzələrinə sahib olmaq uğrunda olacaq**



Dünya yaranandan bu günə qədər insanlar yeraltı-yerüstü sərvətlərin, axar şirin suların, qalın meşələrin, göz qamaşdıran dənizlərin, okeanların, uca dağ yamaclarının olduğu ərazilərə can atıb. İstəklərinə nail olmaq üçün bir-birinə qəsd etməkdən, bir ölkə digər ölkənin ərazisinə hücum etməkdən, öldürməkdən, işğallar həyata keçirməkdən çəkinməyib. Bu gün də eyni proseslər yaşanmaqdadır. İddialı, özünü daha güclü hesab edən dövlətlər nisbətən zəif ölkələrin sərvətlərini ələ keçirmək üçün müharibələr aparır, daxildə vətəndaş qarşıdurmaları yaradır. Görünən ondan ibarətdir ki, hazırkı məqamda daha çox çəkişmələr, qarşıdurmalar şirin su hövzələrinə sahib olmaq uğrunda aparılır. Çünki bu gün şirin suya olan tələbat bütün dünya ölkələrini əhatə edir. BMT-nin hesabatlarında su qıtlığı ən böyük qlobal risk kimi qiymətləndirilir və bu problemin növbəti on illərdə də davam edəcəyi qeyd edilir. BMT-nin hesabatında o da vurğulanır ki, dünya əhalisinin 3 milyarda yaxını hər gün içməli su qıtlığı çəkir. 4 milyarda yaxın əhali isə ən azı bir ay müddətində ciddi su qıtlığı şəraitində yaşamalı olur. Yarım milyard insan isə il boyu ciddi su qıtlığından əziyyət çəkir. Dünyanın əksər böyük şəhərlərində su qıtlığı yaşanır.

Hesablamalara əsasən qeyd olunur ki, dünyadakı suyun cəmi 3 faizi şirin olmaqla yanaşı əlçatandır. Yəni dünyada mövcud olan su hövzələrində 97 faiz su duzludur. Bəzi inkişaf etmiş ölkələr müasir dövrün texnoloji vasitələrindən istifadə etməklə duzlu suyu şirin suya çevirə bilirlər. Yaponiya, BƏƏ və Səudiyyə Ərəbistanı kimi dövlətlər əhalinin suya olan tələbatını duzlu suyu müxtəlif su filtirlərindən keçirməklə və həmin filtrasiya olunan suya kimyəvi maddələr qatmaqla əhalinin istifadəsinə verir. Əgər indiki trendlər davam etsə gözlənilir ki, 2030-cu ildə suya olan tələbat su təminatını 40 faiz üstələyəcək. Yer üzərindəki içməli və asanlıqla əldə oluna bilinən şirin su və yeraltı sular olmaqla 14000 kub kilometrdir. Bu həcmin isə yalnız 5000 kub kilometri insanlar tərəfindən istifadə və yenidən istifadə olunur. Lakin nəzəri olaraq 8 milyarda yaxın dünya əhalisinin ehtiyaclarını ödəmək kifayət qədər şirin su ehtiyatları vardır, hətta dünya əhalisi 9 milyard və daha çox olsa belə düzgün bölüşdürülmə nəticəsində hamını su ilə təchiz etmək olar.

## Yaxın illərdə şirin su hövzələrinə sahib olmaq uğrunda mübarizə güclənəcək

Hazırda dünyanın ən çox susuzluqdan əziyyət çəkən ölkələri sırasında birinci yeri Afrika tutur. Afrikada 300 milyon insan təmiz sudan, 313 milyona yaxın insan isə kanalizasiyadan məhrumdur. Beynəlxalq araşdırmalara görə, qarşıdakı 20-30 il ərzində Afrika ölkələrində iqlim dəyişkənliyi və əhalinin artması ilə əlaqədar su qıtlığı yaşanacaq. Avropa və Asiya ölkələrində də vəziyyət ürəkaçan deyil. Xüsusilə də Çinin əksər iri şəhərləri su çatışmazlığından əziyyət çəkir. Yaxın illərdə Hindistan, Yaponiya, Pakistan kimi ölkələrdə şirin suya olan tələbat iki-üç dəfə artacaq. 2004-cü ilin dekabrında baş verən sunamidən əvvəl Asiya əhalisinin 20 faizi təhlükəsiz içməli su mənbələrindən, 2 milyard nəfər isə standartlara uyğun kanalizasiya şəraitindən məhrum idi. 2005-ci ilin oktyabrında Pakistan və Hindistanda, az miqdarda da Əfqanıstanda baş verən zəlzələ su ilə əlaqəli xəstəliklərə yol açaraq səhiyyə müəssisələrinə, su və kanalizasiya sistemlərinə ciddi zərər vurmuşdu. Banqladeşdə 28-35 milyona yaxın insan tərkibində arsenin miqdarı yüksək olan suyu istehlak edir. Latın Amerikasında 75 milyon insan təhlükəsiz su mənbələrindən məhrumdur, 116 milyon insanın isə kanalizasiya sistemi yoxdur.

Proqnozlara görə Mexiko, Boqota, San-Paulu və Buenos-Ayres kimi şəhərlərə hüquqi və maliyyə dəstəyi artmasa, 20 ildən sonra təhlükə son həddə çatacaq. Su qıtlığına əsas səbəb kimi dünyada əhalinin artımı, su qaynaqlarının plansız istifadəsi, kənd təsərrüfatı sahələrinin genişlənməsi, iri şirkətlərin sayının artması və digər problemlər göstərilir. Digər başlıca problem olaraq bəzi inkişaf etmiş dövlətlərin sudan vəhşicəsinə istifadə etməsidir. Araşdırmalar təsdiq edir ki, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrdən 10-15 dəfə artıq su istifadə edirlər. Yaşayış binalarında, məhsul istehsal olunan şirkətlərdə, əkinçilikdə, maldarlıqda, sənaye məhsullarının istehsalında suya qənaət edilmir. Bəzən su nəzarətsiz şəkildə kanalizasiya boruları vasitəsi ilə dənizlərə axıdılır. Yəni elə hallar olur ki, qitənin bir tərəfində insanlar şirin su çatışmazlığından əziyyət çəkir, digər tərəfində isə mənasız yerə sular kanalizasiya boruları vasitəsi ilə dənizlərə axıdılır. Haqsızlıq və ədalətsiz davranış dünyanın əksər dövlətləri və xalqları tərəfindən narazılıqla qarşılanır. Nəticə isə arzuedilən deyil. Narazı insanlar istismarçılara qarşı sərt və qəti mübarizə aparmağı düşünürlər. Daha doğrusu, artıq su qıtlığından əziyyət çəkən dövlətlər və onların xalqları ədalətli su bölgüsünə nail olmaq üçün mübarizəyə başlayıblar. Bu isə ona dəlalət edir ki, yaxın illərdə baş verəcək yeni müharibələr qızıl, uran mədənlərini, neft, qaz yataqlarını ələ keçirmək uğrunda deyil, şirin su hövzələrinə sahib olmaq uğrunda aparılacaq. Almaniya- Polşa, Pakistan- Hindistan, Tacikistan- Qırğızıstan mübahisələri, bəzi hallarda silahlı qarşıdurmaları məhz şirin su hövzələrinə sahib olmaq uğrunda aparılır.

## Su uğrunda mübahisə Tacikistanla Qırğızıstan arasında dağıdıcı müharibəyə çevrilə bilər

Orta Asiyada su qıtlığı ilə əlaqədar yaranan böhran bəzi hallarda ölkələrdaxili ciddi problemlərin yaranması ilə yanaşı dövlətlərarası toqquşmalara da gətirib çıxarır. 2010-cu ilin aprelin 17-də Qırğızıstan respublikasının prezidenti Qurmanbek Bakıyevin hakimiyyətdən devrilməsinin səbəbi kimi ölkədə su çatışmazlığı və elektrik enerjisinin qiymətlərinin bahalığı göstərilir. Qurmanbek Bakıyev özü də sonralar irəli sürülən iddiaları təsdiqləmişdir. Bu isə onu deməyə əsas verir ki, su və elektrik enerjisi problemlərini aradan qaldırmaq hakimiyyətlərin əsas fəaliyyət istiqamətləridir. Problemlər həll edilmədikcə hökumətlər xalqların hədəfindədir. Stuasiya yetişincə xalq ayağa qalxıb problemləri yoluna qoymaq gücünə malik olmayan hakimiyyətləri devirə bilər. Hələlik Orta Asiya respublikaları həyatı məsələləri təkbaşına həll edə bilmirlər. Çünki resursların azlığı və ya qonşu dövlətlərin bir-birinə olan inamsızlığı məsələnin köklü həllinə imkan vermir. Problemlərin mövcudluğu səbəbindən bir neçə dəfə Tacikistanla Qırğızıstan arasında su qovşağını ələ keçirmək uğrunda mübahisələr lokal toqquşmalara gətirib çıxarıb. Tərəflər Tacikistanın şimalında yerləşən Suğd vilayəti ilə Qırğızıstanın cənub Batken vilayəti arasında yerləşən İsfara çayına nəzarət uğrunda mübarizə aparırlar. Məlumat üçün qeyd etmək lazımdır ki, Qırğızıstanla Tacikistan arasında sərhədin uzunluğu 970 kilometrdir. Bunun 519 kilometri dəqiqləşdirilib, qalanı isə hələ də qeyri-müəyyən qalıb. Sərhəd boyunca 70 mübahisəli sektor var və burada yerli sakinlər arasında su, örüş yerləri və torpaq sahələri üstündə tez-tez qarşıdurmalar baş verir. Qırğızıstan-Tacikistan sərhədində problemlər 1980-ci illərin sonlarında, SSRİ-nin son illərində başlayıb. Ərazinin iqlimi cəhətdən mürəkkəbdir. Yayda temperatur 40 dərəcəyə çatır. Eyni zamanda, yerli əhalinin əsas gəlir mənbəyi kənd təsərrüfatıdır. Əkin vaxtı gələndə isə burada suvarma üçün su uğrunda əsl müharibə gedir.



Məlumat üçün qeyd etmək lazımdır ki, Tacikistanla Qırğızıstan arasında mübahisə sahəsinə çevrilən İsfara çayı Qırğızıstanın Batken, Tacikistanın Soğdi və Özbəkistanın Fərqanə vilayətləri arasında Sırdərya çayı hövzəsində yerləşir. Çayın suyundan hər iki tərəf həm içməli su olaraq, həm də əkinçilik və maldarlıqda istifadə edirlər. Çayın hövzəsində 200 minə yaxın əhali yaşayır. O zaman SSRİ Su Təsərrüfat nazirliyinin qərarı əsasında suyun 37 faizinin istifadəsinə dair limit qoyulub. Ancaq su çatışmazlığı səbəbindən tərəflər limitə əhəmiyyət vermirlər. Yəni qərarın icrasından imtina olunur. Hər iki dövlət İsfara çayına və çayın üzərində quraşdırılan su nasoslarına nəzarət etməyə çalışır. Əslində İsfara çayı üzərində su nasosları və supaylayıcı məntəqələri 1974-cü ildə Qırğızıstanın sifarişi əsasında SSRİ Su Təsərrüfatı Nazirliyi inşa edib. Ancaq Tacikistan tərəfi reallıqla barışmaq niyyətində deyil. Hakimiyyət iddia edir ki, İsfara Tacikistan ərazisində yerləşir və çayın istifadəsinə də onlar qərar verməlidirlər. Tacikistan vətəndaşları suyun paylanmasına nəzarət etmək üçün İsfara çayı üzərindəki supaylayıcı məntəqədə öz müşahidə kameralarını quraşdırıblar. Öz növbəsində Qırğızıstan vətəndaşları çayın onlara məxsus olduğunu qeyd edərək kameraları sıradan çıxarıblar. Vəziyyətə etiraz edən taciklər qırğızlara qarşı əlbəyaxa döyüş aparıb, onlara bədən xəsarətləri yetiriblər. Bir qədər sonra əlbəyaxa dava avtomatlarla, daha sonra isə toplarla əvəzlənib.

## Tacikistanla Qırğızıstan arasında gərginlik yaratmağa çalışan məkrli qüvvələr var

2021-ci ilin aprelin 28-də İsfara çayının yuxarı axınında yerləşən "Qolovnoy" supaylayıcı məntəqəsindəki sahədə sərhəddə hər iki tərəfin sakinlər arasında qarşıdurma baş vermişdi. Hadisənin səhərisi gün tərəflər ov tüfənglərindən bir-birinə atəş açmışlar. Qırğızıstan tərəfindən 13 nəfərin ölmüş, 98 nəfər isə yaralanmışdır. Tacikistandan isə 3 insanın ölmüş, 31 nəfər yaralanmışdır. Ağrılı problemin miqyasının genişlənməsi üçün tərəflər ortaq məxrəcə gələrək işçi qrupunun yaradılması razılığına gəlmişlər. Lakin işçi qrupu heç bir iş görə bilməmişdir. Az sonra yenidən tərəflər arasında qarşıdurma yaşanmışdır. 2022-ci il sentyabrın 14-dən 17-ə qədər Tacikistan- Qırğızıstan sərhəddində son illərin ən gərgin qarşıdurması yaşanmışdır. Qırğızıstan sərhəddə silahlı qarşıdurma zamanı 59 nəfərin, Tacikistan isə 60-dan çox insanın öldüyünü bəyan edib. Qırğızıstanda sentyabrın 19-u rəsmi olaraq matəm günü elan edilib, Tacikistanda isə münaqişə qurbanlarının xatirəsinin sentyabrın 20-də yad ediləcəyi bildirilib. Qırğızıstanın Səhiyyə Nazirliyinin məlumatına görə, Batken səhiyyə müəssisələrində daha 13 nəfərin cəsədi qəbul edilib. Nazirlik beləliklə, münaqişə qurbanlarının ümumi sayının 59 nəfər, yaralananların ümumi sayının isə 163 nəfər olduğunu bildirib. Qırğızıstan prezidenti Sadır Japarov sentyabrın 19-u Tacikistanla münaqişədə həlak olanların xatirəsinə milli matəm gününün elan edilməsi ilə bağlı sərəncam imzalayıb. Bütün ölkə boyu və xaricdəki diplomatik və konsulluq idarələrinin binalarında bayraqlar yarıya endiriləcək.

Bir qədər əvvəl sərhəddə baş verən atışmadan sonra hər iki dövlətin hakimiyyəti ciddi siyasi iradə ortaya qoyaraq ərazidə sakitliyin yaradılmasına nail oldular. Lakin bu sakitliyin uzun çəkməyəcəyi ehtimal edilir. Yenə də müəyyən məkrli qüvvələr hər iki dinc, sakit xalqı bir-birinə silah çəkməyə təhrik edəcəklər. Lakin dünya sivilizasiyasına böyük mütəfəkkirlər, şair və yazıçılar, sərkərdələr, elm və mədəniyyət xadimləri bəxş etmiş Tacikistan və Qırğızıstan xalqları müdriklik göstərək, heç bir təxribata uymayacaqlar. Biz buna əminik. Nəzərə almaq lazımdır ki, iki dost qardaş ölkə arasında baş verənlər bizləri də narahat edir. Tacikistanla Qırğızıstan çətin, ağır yol keçərək, bugünkü sakit, firavan yaşayışlarını qurublar. Hər iki dövlət 71 il ərzində keçmiş SSRİ-nin tərkibində olub və yalnız ötən əsrin 90-cı illərində müstəqil dövlətçiliklərini qura biliblər. Ancaq müstəqilliklərinin ilk illərində hər iki dövlət çətinliklərlə üzləşiblər, ölkələrində ictimai-siyasi sabitlik pozulub, qarşıdurmalar baş verib. Belə vəziyyət dövlət müstəqilliyinin təhlükə altında qalması demək idi.

Lakin hər iki dövlətin işıqlı ziyalılarının, düşünən beyinlərinin, ağıllı siyasətçilərinin müdrik qərarları sayəsində problemləri tədricən aradan qaldırmağa nail oldular. Belə bir çətinliklər, məşəqqətlər görmüş iki qonşu, həm də müsəlman ölkənin bir-birinə silah çəkməsi, bir-birini düşmən gözündə görməsi yalnız düşmənləri sevindirə bilər, dostlarını isə pərişan edir. Ona görə də, Azərbaycana dost, qardaş ölkə olan Tacikistanın və Qırğızıstanın liderləri, xalqları səbirli olmalı, problemin silah gücünə deyil, ağılın zəkası ilə həll etməyə çalışmalı və vahid birliyin, dostluğun yaradılması üçün müdrik qərarlar verməli, addım atmalıdır.

***İLHAM ƏLİYEV***

# Avropa silahlanır

## Brüssel sammiti gələcək təhlükəsizlik arxitekturasını işə salır

***ABŞ prezidenti Donald Trampın Kiyevi "ədalətsiz sülhə" və "Rusiyaya təslim olmağa" məcbur etmək cəhdləri kontekstində Aİ-nin müdafiəsinin gücləndirilməsi və Ukraynadakı münaqişə cümə axşamı günü Brüsseldə keçirilən AB-nin fövqəladə sammitinin əsas mövzuları olub. Aİ "Soyuq Müharibə"dən bəri Avropanın ən böyük təhlükəsizlik təşəbbüsü çərçivəsində əlavə hərbi maliyyə üçün yüz milyardlarla avro ayırmağa hazırlaşır. Brüsseldə keçirilən sammit öncədən taleyüklü adlandırılmışdı və Rusiya Federasiyasının hərəkətləri və ABŞ administrasiyasının Ukraynaya hərbi yardımı dayandırmaq qərarı ilə bağlı Avropadakı vəziyyət üç il əvvəlkindən daha təhlükəli idi. Avropa Komissiyasının sədri Ursula von der Leyen deyib: "Avropa böyüklər həyatımızda heç birimizin görmədiyi miqyasda açıq və indiki təhlükə ilə üz-üzədir".***



Polşanın baş naziri Donald Tusk Brüsselə gələrkən deyib ki, hazırkı vəziyyətdə Avropa silahlanma yarışına girməli və bu yarışda qalib gəlməlidir. Onun sözlərinə görə, Aİ müdafiə sənayesi üçün maliyyənin artırılması təşəbbüsləri bu yolda ilk addımdır. Ukrayna prezidenti Vladimir Zelenski Avropa sammitinə dəvət olunub. O, çıxışından sonra iclas zalını tərk edib və 27 ölkənin liderləri görüşün gündəliyini müzakirə etməyə başlayıblar. "Euroaktiv" nəşrinin sammit ərəfəsində yazdığı kimi, Avropa İttifaqını parçalayan, ABŞ-la münasibətləri çətinləşdirən Ukraynaya dəstək məsələsinin ikinci plana salınması qərara alınıb. Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaja Kallasın Kiyevə 20 milyard dollarlıq yardım paketi təqdim etmək təklifi yekun bəyanat layihəsindən çıxarılıb. Bu təşəbbüs Macarıstan tərəfindən əngəllənib.






Eyni zamanda, bəyanat layihəsini nəzərdən keçirən Finlandiyanın STT xəbər agentliyinin məlumatına görə, o, Brüsselin Ukraynaya dəstəyini davam etdirmək niyyətini bəyan etməyə və bir çox üzv ölkələrin Kiyevə döyüş sursatlarının, hava hücumundan müdafiə sistemlərinin və ələ keçirən raketlərin tədarük həcmini artırmağa hazır olduğunu təsdiqləməyə kömək edə bilməz. Bundan əlavə, layihədə qeyd olunur ki, istənilən potensial sülh sazişi Ukrayna üçün etibarlı təhlükəsizlik təminatlarını təmin etməlidir. Martın 19-da baş tutacaq Aİ sammitində bu mövzuda daha ətraflı müzakirələr davam etdirilsə də, prioritet müzakirə mövzusu von der Leyen tərəfindən martın 4-də 800 milyard avro büdcə ilə təqdim edilmiş iddialı "Avropanın yenidən silahlanması" planı idi. O, liderlərə Aİ ölkələrinə müdafiə ehtiyacları üçün 150 milyard avroya qədər borc götürmək təklifinin təfərrüatlarını açıqlayıb. Avropa Komissiyası bu pulu qlobal kapital bazarlarından borc götürəcək və sonra Avropadan birgə silah almaq şərti ilə Aİ ölkələrinə borc verəcək. Bu vəsait Aİ-də hava hücumundan müdafiə sistemlərinin və Ukrayna üçün silahların istehsalına yönəldiləcək.

Von der Leyen həmçinin sammit iştirakçılarını silah istehsalı üçün 650 milyard avro toplamaq üçün cari müdafiə xərclərini 1,5% artırmağa çağırıb. Göründüyü kimi, onlar Avropa Komissiyasının planını dəstəkləyiblər, lakin Aİ səviyyəsində hərbi ehtiyaclar üçün yeni maliyyə mənbələri ilə bağlı vəziyyətin ətraflı izahını tələb ediblər. Almaniya Aİ-nin büdcə normalarında islahatların aparılması ideyası ilə bu sahədə qabaqcıl olmuşdur. Söhbət Almaniyanın ehtimal olunan gələcək kansleri, Xristian Demokratlar İttifaqının rəhbəri Fridrix Merzin hərbi xərclərin artırılmasına maneələrin aradan qaldırılması və bu məqsədlə borclanma qaydalarına yenidən baxılması təşəbbüsündən gedir. Financial Times-dakı mənbələrə görə, Almaniya və Fransanın "strateji sahədə aktivləşmə və müdafiəyə investisiyaların artırılması, satınalmaların birləşdirilməsi və Avropa sənaye bazasında yerləşdirilməsi kimi addımlar" məsələlərində mövqeləri daha da yaxınlaşıb.

Bununla belə, Avropa Birliyi Trampın Ağ Evə rəhbərlik etdiyi müddətdə Ukrayna üçün müdafiə və silah xərclərini öz ödəməli olacağından ehtiyat edir. Bu barədə Avropa diplomatlarına istinadən "Politico" məlumat yayıb. Onlar həmçinin fon der Leyenin "Avropanı yenidən silahlandırmaq" planını həyata keçirmək qabiliyyətinə şübhələrini bildirirlər. "Fon der Leyen öküzün buynuzlarından tutmağa çalışır. Bəs Aİ-nin texnokratik strukturu da buna əməl edəcəkmi?", diplomatlar soruşur. Beləliklə, Avropa Komissiyasının təşəbbüsü Avropa Sabitlik Mexanizminin (FHN) səfərbər edilməsi imkanlarını nəzərdən keçirir. Lakin bu ideya hüquqi və siyasi maneələrlə üzləşir. Axı İtaliya, məsələn, müqaviləni ratifikasiya etmədi və onun ilkin məqsədi hərbi deyildi. Üstəlik, FHN yalnız Aİ ölkələrini, o cümlədən Polşanı istisna edən avrozona ölkələrinə aiddir.

Fon der Leyenin təşəbbüsü Fransa prezidenti Emmanuel Makronun Ukraynaya hərbi ekspedisiya qüvvələrinin göndərilməsi təkliflərindən ayrı nəzərdən keçirilə bilməz. Böyük Britaniyanın baş naziri Key Starmerin Ukraynanın maliyyələşdirilməsində fəaliyyəti və Ukraynanın dəniz və havasında Britaniya-Fransa qoşunlarının olmasına haqq qazandırmaq cəhdləri diqqətdən kənarda qala bilməz. "Fon der Leyen, Makron və Starmerin hərəkətləri və təklifləri koordinasiya hissi yaradır. Bununla belə, Aİ-nin 27 ölkəsi arasında birlik və iradə yoxdur və bunsuz hər hansı planın reallaşması mümkün deyil", - Olençenko yekunlaşdırıb.

### ABŞ-Rusiya proksi müharibəsi və Avropa

ABŞ-dan kəşfiyyat məlumatlarını almayan Ukrayna Silahlı Qüvvələri (USQ) cəbhədən və Rusiya Federasiyası ərazisindən əməliyyat dərinliyində həyata keçirilən zərbələrin sayını əhəmiyyətli dərəcədə azaldıb. Rusiya Silahlı Qüvvələri hücumun sürətini artırır və Mərkəz qrupunun qoşunları Donbassın Andreyevka kəndini ələ keçirib. Martın 6-da Brüsseldə fövqəladə sammitdə kəşfiyyat da daxil olmaqla əlavə yardım vəd edən Ukraynanın avropalı tərəfdaşları bu vəziyyətlə barışmaq istəmirlər. Brüssel görüşündən sonra Aİ liderləri Ukraynaya dəstək məqsədilə müdafiə xərclərini daha da artırmağa hazır olduqlarını bəyan ediblər. Ukrayna Silahlı Qüvvələrinin gücləndirilməsi, onları kəşfiyyat məlumatları ilə təmin etmək üçün konkret addımlar, eləcə də sülhməramlı kontingentlərin yerləşdirilməsi perspektivi gələn həftə Parisdə Kiyevə kömək etmək istəyən Avropa ölkələrinin baş qərargah rəisləri tərəfindən müzakirə olunacaq.

*Ardı Səh. 11*

# Avropa silahlanır

*Brüssel sammiti gələcək təhlükəsizlik arxitekturasını işə salır*





**Əvvəli Səh. 10**

Görünən odur ki, Fransa prezidenti Emmanuel Makronun çəkindirmə vasitəsi kimi bütün Avropanı fransız nüvə silahları ilə qorumaq təşəbbüsündən də danışılacaq. Moskvada bu cür addımlar artıq Rusiya üçün təhlükə hesab olunurdu.

Artıq Baltikyanı ölkələr, Polşa, Böyük Britaniya, Fransa, Almaniya və digər NATO ölkələri gələcəkdə hərbi xərcləri artıracaqlarını bəyan ediblər. Vəsaitin bir hissəsi Kiyevə köçürüləcək. Məsələn, martın 6-da Hollandiyanın baş naziri Dik Şof 2026-cı ildə Ukraynaya dəstəyin davam etdirilməsi üçün 3,5 milyard avro ayrılacağını açıqlayıb. Baş nazirin sözlərinə görə, vəsait gələn il üçün Amsterdamdan Kiyevə dəstək verəcək, "lakin lazım gələrsə, bu il artıq istifadə oluna bilər". Schoof aydınlaşdırıb ki, bu vəsaitin 700 milyon avrosu dronlara xərclənəcək. Bundan əlavə, payızda Amsterdam F-16 qırıcılarının ilk partiyasını Kiyevə çatdıracaq.

Almaniya Ukrayna Silahlı Qüvvələrinin zirehli texnikasının bərpası üçün yeni zavodlar yaradır. Xüsusilə, Almaniyanın "Flensburger Fahrzeugbau Gesellschaft" (FFG) şirkəti 2036-cı ildə Flensburqda 75 milyon avro dəyərində zirehli maşınların istehsalı və təmiri üzrə zavod tikməyi planlaşdırır. FFG-nin məlumatına görə, zavod zirehli piyada maşınları ilə yanaşı, ACSV G5 (şassisi Rheinmetall Skyranger 30 özüyeriyən zenit-artilleriya sistemlərinin əsasını təşkil edən zirehli döyüş dəstək maşını) və Wisent 2 (zirehli mühəndis-deşikli maşınlar üçün - BİM) istehsal edə biləcək. Bildirilir ki, "Wisent 2" "Leopard 2" tankının şassisi üzərində qurulub və ilk növbədə minalardan təmizləmə, yəni güclü möhkəmləndirilmiş minalanmış sahələrə hücum etmək üçün mühəndis maşını kimi istifadə olunur. NATO artıq Ukraynaya belə maşınlar göndərib (təxminən 75 ədəd) və Ukrayna Silahlı Qüvvələri onlardan istifadə edib.

"Politico"nun məlumatına görə, Ukrayna Silahlı Qüvvələri əvvəllər kəşfiyyat məlumatlarının 80%-ni müttəfiqlərindən, əsasən də Pentaqon və Mərkəzi Kəşfiyyat İdarəsindən alırdısa, indi Vaşinqtonun mövqeyini dəyişdiyinə görə informasiya axını kəsilib. "The New York Times" Ukrayna Silahlı Qüvvələrinin Baş Kəşfiyyat İdarəsinin keçmiş rəhbəri Valeriy Kondratyukun fikrinə istinadən yazır ki, Kiyev hazırda məlumatları ABŞ-dan deyil, alternativ mənbələrdən alır. Avropa ölkələrinə məxsus peyklərdən alınan görüntülər də daxil olmaqla. Nəşr iddia edir ki, "MKİ Ukraynaya elektron məlumatların ələ keçirilməsi üçün ən azı üç məxfi baza yaratmağa kömək edib". İddialara görə, bu obyektlər fəaliyyətini davam etdirir və "ölkənin Amerika kəşfiyyatından asılılığını azaldır". "The New York Times"ın mənbələri ümid edir ki, "Ukrayna Silahlı Qüvvələrinə məlumatların verilməsində fasilə uzun sürməyəcək - bir-iki həftə". Martın 6-da Fransanın müdafiə naziri Sebastien Lecornu Ukrayna ilə kəşfiyyat məlumatlarının mübadiləsini davam etdirməyə hazır olduğunu açıqlayıb. O, Fransa kəşfiyyatını "suveren" adlandırıb, buna görə də Parisin "ukraynalılarla paylaşdığı kəşfiyyat resursları var". Qərb mətbuatının yazdığına görə, Ukrayna Avstraliya və Yeni Zelandiyadan da məlumat alır.

ABŞ-ın Kiyevdəki səfirliyində xüsusi şöbədə məsləhətçi və təlimatçı vəzifələrində çalışmış 160-a yaxın amerikalı zabitin taleyi hələ də məlum deyil. Qərb mediası indi həmin amerikalı zabitlərin Ukrayna Silahlı Qüvvələrinin qərargahının işində iştirakını, Rusiya hədəflərinin seçilməsində və onlara zərbələr endirmək üçün koordinatların verilməsində köməkliklərini xatırladır. Beləliklə, bu, bir gün əvvəl ABŞ-ın dövlət katibi Marko Rubionun Ukraynadakı münaqişənin mahiyyət etibarı ilə Rusiya və ABŞ arasında dayandırılmalı olan proxy müharibəsi olduğu barədə bəyanatını bir daha təsdiqləyir. Qeyd edək ki, Rubio bu açıqlamaları "Fox News"da çıxış edərkən deyib.

Kreml ABŞ Dövlət Departamenti rəhbərinin vəziyyəti necə qiymətləndirdiyi ilə razıdır. Rubionun bəyanatı Rusiyada müsbət qarşılanır, lakin əgər Birləşmiş Ştatlar proksi müharibəni dayandırmaq istəyirsə, onda niyə Amerika mediası ABŞ-dan Ukrayna Silahlı Qüvvələrinə döyüş kəşfiyyatının ötürülməsinin dayandırılmasının qısamüddətli olacağını yazır? Yazırlar ki, bu, Vaşinqton və Kiyev Ukraynanın təbii sərvətləri ilə bağlı saziş imzalayana qədər davam edəcək. Parisin, Londonun, daha sonra isə Kiyevin elan etdiyi "nəfəs məkanı" istiqamətində ilk addımlar, yəni danışıqlardan əvvəl fasilə elan edilməsi də anlaşılmazdır. Ukrayna prezidenti Vladimir Zelenski və onun avropalı tərəfdaşları bu cür addımları məhbusların azad edilməsi, raketlərin, dronların istifadəsinə qadağa, enerji və mülki infrastruktura hücumlar adlandırıblar. Lakin Rusiya Federasiyası belə bir dünyaya razı deyil.

Rusiya Federasiyasının məsələ ilə bağlı rəsmi bəyanatında deyilir ki, Rusiya Fransa və Böyük Britaniyanın Ukraynadakı döyüşlərdə bir aylıq "nəfəs alan" planına qarşı çıxır. Yekun həll üçün möhkəm razılaşmalara ehtiyac var. Bütün bunlar olmadan bir növ "nəfəs alma", "yenidən qruplaşma" - bütün bunlar tamamilə qəbuledilməzdir, çünki bu, tam əks nəticəyə gətirib çıxaracaq.

## Fransa pul axtarır

Fransa prezidenti Emmanuel Makronun həmvətənlərini vahid Avropa ölkələrinə qarşı mümkün təcavüzü dəf etməyə hazırlaşmağa çağırması onun hökumətinin nazirləri və hər şeydən əvvəl müdafiə naziri Sebastyan Lekornu tərəfindən dəstəklənib. O, dərhal yeni hərbi gəmilər, təyyarələr və ən əsası pul tələb edib. Moskvada Fransa liderinin sözləri "son dərəcə qarşıdurma" kimi qiymətləndirilib, bunun sülh haqqında deyil, müharibə haqqında düşünən dövlət başçısının çıxışı olduğunu qeyd ediblər. Yelisey Sarayının rəhbəri 5 mart axşamı televiziyada xalqa rezonans doğuran çıxışı ertəsi gün də çoxlu rəy və reaksiyalar toplamaqda davam edib. Bir gün əvvəl Beşinci Respublikanın rəhbəri Rusiyanı "Fransa və Avropa üçün təhlükə" adlandırıb və uzun illər Moskvanı "Ukrayna münaqişəsini qlobal münaqişəyə çevirməkdə" ittiham edib. Bu vəziyyətdən çıxan məntiqi nəticə Makronun həm Fransanın özünün, həm də bütün Avropanın müdafiə qabiliyyətini gücləndirməyə, o cümlədən Fransanın "nüvə çətirini" Avropa qitəsində müttəfiqlərin ərazisinə genişləndirməyə çağırması olub.

Fransanın müdafiə büdcəsi hazırda ildə 50,5 milyard avro təşkil edir. Ona görə də əsas sual əlavə milyardları haradan əldə etməkdir. Lakin nazir Lecornu cavab tapıb: o, "müasir Avropanın ən güclü ordusunun" texniki cəhətdən yenidən təchiz edilməsi üçün istifadə edə biləcək Aİ müttəfiqlərinin vəsaitlərindən, həmçinin fransızların qənaətindən (çox güman ki, məqsədli kreditlər şəklində) istifadə etmək imkanlarına istinad edib.

Avropanı "nüvə çətiri" necə olacaq? Le Parisien-ə bu yaxınlarda verdiyi müsahibədə müdafiə naziri artıq Fransanın 2024-2030-cu illər üçün hərbi proqramlaşdırma haqqında qanunla müəyyən edilmiş çərçivədən kənara çıxaraq sürətləndirilmiş yenidən silahlanmasının zəruriliyində təkid edib. Qanun 413 milyard avro vəsaitin ayrılmasını və müdafiə büdcəsinin hər il 3 milyard avro artırılmasını nəzərdə tutur. Bununla belə, nazir "daha tez hərəkət etməliyik" deyir. Bundan əlavə, Müdafiə Nazirliyinin rəhbəri Fransanın hava-kosmik qüvvələrini gücləndirməyə çağırıb. "Böhran ssenariləri göstərir ki, əlavə 20-30 Rafale təyyarəsi bizə bir neçə müharibə meydançasında yerimizi daha inamlı saxlamağa imkan verəcək" deyib. Onun sözlərinə görə, quru qoşunları pilotsuz təyyarələrin və elektron silahların sürətləndirilmiş inkişafı hesabına gücləndirilməlidir və o, Fransa donanmasını birinci dərəcəli freqatların sayını 18-ə çatdırmaq istəyir (hazırda 15-dir). Bu arada, Rusiyada diqqət ilk növbədə Fransa liderinin çıxışının başqa bir hissəsinə - Emmanuel Makronun Fransanın nüvə qarşısının alınması qüvvələrinin bütün Avropa ərazisini əhatə edəcək şəkildə genişləndirilməsini təklif etdiyi hissəyə yönəldilib, buna səbəb kimi Rusiya təhlükəsi göstərilib.

Martın 6-da Kremlin mətbuat katibi Dmitri Peskov Fransa liderinin sözlərini "son dərəcə qarşıdurma" adlandırıb. "Çətin ki, bunu nitq sülh haqqında düşünən dövlət başçısının çıxışı kimi qəbul etmək olar. "Fransa daha çox müharibə haqqında düşünür. Elə həmin gün axşam saatlarında Rusiya Xarici İşlər Nazirliyi də bu məsələ ilə bağlı ətraflı şərh verib. Makronun çıxışında açıq şəkildə nüvə şantajı qeydləri var. Parisin bütün Avropanın nüvə "patronu" olmaq, onu "nüvə çətiri" ilə təmin etmək, demək olar ki, Amerika çətirini əvəzləmək kimi ambisiyaları üzə çıxır. Maraqlıdır, bu, Fransanın özünün və müttəfiqlərinin təhlükəsizliyinin gücləndirilməsinə gətirib çıxaracaqmı?

**V.VƏLİYEV**

# Aldadanlar və aldananlar...

***İnsan övladı var olandan aldatmaq kimi xisləti də var olub. Lakin bu xislət müasir dövrümüzdəki qədər heç vaxt inkişaf etməyib. Elə ki, smartfon telefonlar həyatımıza daxil oldu, bunun ardınca da gündə bir sosial şəbəkə istifadəyə verildi, bundan sonra insanların hər biri real həyatdan çox internet həyatında yaşamalı oldular.***

Bu gün isə əksər insanın əsas yaşayış yeri deyərdik ki, elə sosial şəbəkələr, sosial mediadır. Xüsusilə gənclərimiz real həyatdan çox ikinci, yəni internet həyatında yaşayırlar. Araşdırmalar sübut edir ki, sosial şəbəkələrdə məskən salan insanların problemi real həyatda yaşayan insanlardan dəfələrlə artıqdır. Həmin problemlər isə bir, iki deyil, onlarladır.

Bu gün həmin problemlərin ən qorxuncundan, dəhşətlisindən danışmaq istəyirik. O problem ki, yaşlı kişi və qadınların gənc qız və oğlanları aldatmasıdır. Aldanan gənclərin sonrakı taleyi isə çox acınacaqlı olur. Bu barədə danışaq.



## Aldadanlar

Aldatmaq dövrümüzün xarakterik xüsusiyyətinə çevrilib. Kim harada gəldi, aldatmaq, mənfəətlənmək istəyir. Bu, tək maddi tərəf olsaydı, dərd yarı olardı. Necə ki, deyirlər, gedən mal olsun, can sağ olsun. Maddi aldatmaqla insan düzdür, itirir. Məsələn, aldadanların bank kartlarından çəkdiyi pullarla, marketlərin yalan endirim kampaniyalarına başlayıb, lakin əslində köhnə qiymətdən də baha malını sırımaqla, ət satanın tərəzidə fırıldağı ilə, bazarda vicdanı olmayan satıcıların bütün məhsulları ətsatan kimi tərəzidən yüngül götürməsi ilə, onlayn alış-veriş zamanı pulunu ödəyib məhsulunu ala bilməyənlərin rastlaşdığı problem kimi yüzlərlə aldatma növü var müasir dövrümüzdə. Maddi aldatmalar haradasa unudula, itirilən pulların yeri dola bilər. Baş verən hadisələr yaddan çıxa bilər.






Lakin aldatmanın başqa bir növü də var, hansı ki, bu gün onun haqqında danışacağıq. Bu, mənəvi aldatmadır. Elə bir aldatma, yoldan çıxarmadır ki, burada aldananın itirdiyinin yeri heç vaxt dola bilmir. Bax elə buna görə də bu gün mənəvi aldatmalar barədə danışmaq, xüsusilə də gəncləri bu cür fırıldaqçıların toruna düşməməyə çağırmaq istəyirik.

Sosial həyatın real həyatımızı üstələdiyi bir vaxtda təbii ki, tanışlıqlar da çoxalır. Sosial şəbəkələr bu tanışlıqlara geniş yollar açır. Məsələn, İnstaqram, Tiktok bu sosial şəbəkələrin lap aktividir ki, burada tanışlıqlar daha çox olur.

Yaşlı kişi və qadınlar var ki, bu sosial şəbəkədə yalnız gəncləri yoldan çıxarmaq, onlara maddi nemətlər təklif etməklə istəklərinə nail olmağa çalışırlar. Bu səbəbdən də tanışlıqda diqqətli olmaq lazımdır. Qısa tanışlığın ardınca müxtəlif təkliflər gəlir ki, gənc oğlan və qızlar həyat təcrübəsinin az olması səbəbindən bu təkliflərlə razılaşmalı olur. Lakin bunun necə bitməsini ağlına belə gətirə bilmir.





## Aldananlar

Sonu aldanan bir gəncə çevrilir bizim övladlarımız. Özündən 15-20, çox halda isə daha böyük yaşda olan insanların toruna düşür. Gənc qızlarımız onlara edilən təkliflər, marka mağazaların geyimləri, ətirləri, çantaayaqqabıları ilə aldadılır. Gənc oğlanlar maşın, geyim, bahalı zinət əşyaları ilə yoldan çıxarılır.

Gənc qızlar ailə qurmalı, ev, övladı sahibi olmalı halda, sosial şəbəkələrdəki bu insan canavarlarının tələsinə düşür.

Gənc oğlanlar qızlar kimi ailə başçısına çevrilməli, bir iş ardınca gedib, halal qazanc əldə etməli olduğu halda, sosial şəbəkələrdə özündən dəfələrlə yaşlı qadınların toruna düşür.

Onlayn söhbətlər, qarşı tərəfin istədiyi mövzularda danışmaq qarşılığında pul təklifləri alan gənc oğlan və qızlar əksər vaxtda real həyatda da onların tələsinin ovu olurlar. Hansısa bir marka paltar geyinmək, ayaqqabı, çanta almaq, maşınlı olmaq xətrinə özünü qurban edən gənc qız və oğlanlar aldanırlar. Lakin aldandıqlarının fərqinə vara bilmirlər. Çünki bunun nəticələrini görə bilmirlər.

## Tək sosial şəbəkələrmi?

Xeyr, real həyatımızda da belə aldatmalar saysızdır. Gənc oğlan və qızları düz yolundan sapdırmaq istəyən onlarla insan var. İstər kişi, istər qadın olsun, belələri gənclərin yaşının az olmasından və təcrübəsizliyindən istifadə edib onları düz yolundan azdırır və öz mənafeyi üçün istifadə edir.

Yolda, ictimai nəqliyyatda, parkda, restoran-kafedə təsadüfi tanışlıqlar əksər halda bu cür iyrənc münasibətlərin başlanğıcı olur. Maraqlı tərəf isə budur ki, bu tanışlıqlar çox vaxt iki tərəfin deyil, üçüncü tərəfin də iştirak etdiyi hekayəyə çevrilir. Buradan isə belə nəticə çıxarmaq olur ki, həm sosial şəbəkələrdə, həm də real həyatda özündən başqa, digərlərinə çalışan canavarlar da var. Bu canavarların rastına çıxan təcrübəsiz, hələ özünü müdafiə etməyi bacarmayan gənc oğlan və qız isə onun hiyləsindən, ətini-qanını son damlayadək yeyib-içmədən əl çəkməyəcəyindən xəbərsizdir. Elə buna görə də tora düşür və nə vaxtsa bu tordan qurtula bilərsə də, bir ömür əzab çəkir.

## Aldanan yalnız gənclər deyil

Bəli, aldananlar tək gənclər deyil. Əynindən-başından, uşağının boğazından kəsib hərə bir telefon alıb qoyub cibinə. İçini də doldurub sosial şəbəkələrlə. Həyatdan əlini üzüb, ikinci həyata baş vuran ailəli, orta yaşlı insanlar da var ki, gün boyu saatlarla qalır bu sosial şəbəkələrdə. Sosial şəbəkələr də dediyimiz kimi, doludur fır-fırıldaq adamlarla. Yəni onlar aldatmağa adam axtarır. Bu avamlar da olur onların hərifi.

Hərifləyirlər, gənc, gözəl qadınlara sevgi dastanı söyləyir, iş axtaran qadınlara guya köməklik göstərmək istəyirlər. Saxta profillərlə qadınlarla elə şirin, inandırıcı danışırlar ki, bu yazıqlar da inanmış olur. Fakt var ki, onlardan hələ rayonlardan durub Bakıya gələnlər də var. Bu fırıldaqçıların şirin dilinə aldanıb iş üçün kilometrlərlə yol qət edib gəlib burada iş əvəzinə başqa təkliflərlə qarşılaşanlar da var.

Sosial şəbəkələrdə təsadüfi tanışlıqdan sonra aşiq olanlar da olur. Buna görə ailəsini atıb Bakıya gələnlər də var. Nədir, nədir ki, filankəsə aşiq olub. Hələ uşaqlarını atanlar da onların içərisində var. Gəlir, lakin az sonra nə qədər səhv etdiyini anlayır. Evinə, ailəsinin yanına qayıtması isə artıq mümkün olmur. Belə olan təqdirdə isə düşdüyü səhv yolun acılarını yaşamağa başlayır və artıq insani hissləri bir kənara qoyub, vəhşi hisslərlə ömrünə davam edir.

## Nəticə

Nəticə aldadanlar üçün eyni olmasa da, aldananların hər biri üçün eyniyyət təşkil edir. Çünki bu yol doğru yol deyil. Sonu olmayan kədərli bir yoldur.

Çox təəssüf kimi bu kimi hallar gündəngünə çoxalır: həm aldadanların, həm aldananların sayı artır. Elə buna görə də narahatlıq keçirib bu mövzuya toxunduq. Bəlkə kimisə maariflənməsində bir zərrə köməyimiz olar deyə.

Nə deyək sənə, internet əsri. Səni parça-parça olub yerə tökülsən deyək, bir günün güdazına gedəsən deyək, nə deyək ki, ürəyimizdən tikan çıxmış olsun.

Müsəlmanlıqdan, namusundan, arından keçən işbazlara nə deyək? Allah sizin cəzanızı versin, deyək. Bu avamları onsuz da Allah yazıq yaradıb da. Nə üçün onlardan istifadə edirsiniz? Təcrübəsiz gəncləri nə üçün yoldan çıxarırsınız?

Yaxşı, siz dindən-mənsəbdən uzaqlaşmısınız, deyək ki. Bəs bu yazıqlarla nə üçün divan edirsiniz? Nədir məqsədiniz? Axı sizin də ana-bacınız olmamış deyil. Belə isə bu hərəkətlərə başlayarkən heç onları da göz önünə gətirmirsiniz?

Bəli, biz çox deyirik, görünür ki, dinləyən azdır. Deyəndə ki, bu sosial şəbəkələr sosial bəladır, bizi qınayanlar olur. Bu sosial şəbəkələr neçə-neçə ailə dağıdıb, neçə-neçə sevgilini bir-birindən ayırıb, neçə-neçə nişanı geri qaytarıb, neçə-neçə gəncin həyatını öz məhvərindən çıxarıb, ayrı bir istiqamətə aparıb.

Söhbəti bütün çılpaqlığı ilə edə bilmirik. Çünki bu aldatmalar və aldanmalar mövzu etibarilə utandırıcıdır. Hər bir valideyni övladları ilə bu barədə yorulmadan söhbət etməyə çağırırıq. Bu qədər hadisə fonunda aid qurumlarının fəaliyyətinin çox zəif olduğu açıq-aydın görünür. Gənclərlə iş aparmaq lazımdır. Aid qurumlar fəaliyyətə başlamalı, gəncləri, qadın və kişiləri gözləyən təhlükədən xəbərdar etməlidir.

Sosial şəbəkələrin real həyat olmadığını, burada yalanların doğrulardan daha çox olduğunu anlamaq, gələcəyi buğunun iyrəncliyinə qurban verməmək üçün ayıq-sayıq olmaq lazımdır. Unutmayaq ki, mənəvi olaraq aldanmaq maddi aldanmağa bənzəmir. Bu aldanmaq növü bizdən həyatımızı oğurlayır. Biz isə ömrümüzün sonunadək onu axtarır, lakin tapa bilmirik.

Həyatımızı itirməmək, dünya malına, yalan, şirnikdirici vədlərə qurban verməmək üçün aldanmayaq. Aldadanların hisslərinin yalnız müvəqqəti olduğunu anlayaq. Tora düşməyək, çünki oradan çıxmaq bəzən mümkün olmur. Çıxmaq mümkün olanda isə artıq mənəviyyatdan əsər-əlamət qalmır...

***Mətanət Məmmədova***

# Cinsiyyət öyrənmə yığıncağı nədir?

***Dəyişən həyat tərzi ilə gündəlik həyatımıza yeni əyləncələr və fəaliyyətlər əlavə olunur. Bu tədbirlərdən biri də günü-gündən populyarlaşan "baby shower" partiləridir. Bir çox qonaqlar bu yığıncağa gələrkən hədiyyə alır. Gələcək anaların və onların yaxınlarının bir araya gəldiyi bu əyləncəli hadisə üçün düzgün hədiyyə seçmək vacibdir. Doğulmaq üzrə olan körpənin saysız-hesabsız əşyalara ehtiyacı var. Hədiyyəni düzgün seçərkən həm gələcək ananın ehtiyac duya biləcəyi, həm də onun bəyənə biləcəyi hədiyyələri nəzərə almalısınız.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## "Baby Shower" nədir?

Qloballaşan dünyada texnologiya sayəsində mədəniyyətlər bir-biri ilə qarşılıqlı əlaqədə olur. Bu qarşılıqlı əlaqə ilə xaricdə geniş şəkildə qeyd olunan "baby shower" da ölkəmizdə qeyd olunan əyləncəli tədbirlərdən biridir. Xüsusilə ətraflarında körpə gözləyən cütlükləri olanların tez-tez eşitdiyi bu hadisə, doğumdan qısa müddət əvvəl gözləyən ananın sevdikləri tərəfindən təşkil edilir.

Bir körpə yığıncağının iki əsas səbəbi var. İlk növbədə, doğumdan qısa müddət əvvəl gələcək ananın stresini və narahatlığını azaltmaq üçün edilir. Dostları və ailəsi ilə əyləncəli anlar yaşadıqca ananın motivasiyası artır. İkinci səbəb isə cütlüyə maddi dəstək ola bilməkdir. Uşaq duşu hədiyyələri sevimli və faydalı məhsullardır. Cütlük hamiləlik xəbərini alanda onların xərcləri xeyli artır. Bu səbəbdən sevdikləri bu təşkilatda müxtəlif hədiyyələrlə cütlərin yükünü azalda bilər. Bu maddi və mənəvi dəstək ilə unudulmaz bir gün yaşana bilər və cütlərin mənəviyyatını yüksəldə bilər.



## Bu yığıncağı necə təşkil etmək olar?

Əgər bu yığıncağa qərar vermişsinizsə, bunun bir az zəhmətli bir iş olduğunu bilməlisiniz. Özünüz çox iş görmək istəmirsinizsə, bir təşkilat şirkəti ilə müqavilə bağlayaraq bu işin öhdəsindən gələ bilərsiniz. Təşkilat şirkətləri dekorasiyadan tutmuş içkilərə qədər bir çox işlərlə məşğul olurlar. Yığıncağın ləvazimatları da şirkətlər tərəfindən təşkil edilir. Bu sizə böyük rahatlıq təmin edir. Ancaq bir təşkilat şirkətindən istifadə etmək əvəzinə özünüz təşkil etmək istəyirsinizsə, ətraflı planlaşdırma tələb olunur. Unutmayın ki, bu proses həm çətin, həm də zövqlü ola bilər.

Bu tədbiri özünüz təşkil etmək qərarına gəlmisinizsə, ilk növbədə məkanı və vaxtını müəyyənləşdirməlisiniz. Sonra qonaq siyahısını yaratmalısınız. Bunları erkən müəyyənləşdirib hazırlamalısınız, çünki qonaqların hədiyyə almaq üçün vaxtının olması vacibdir. Bunları həll etdikdən sonra partinin konsepsiyasını müəyyən etmək daha məqsədəuyğun olardı. Tort, çəhrayı, mavi şarlar və bəzək kimi ziyafətin əsas əşyalarını bu konsepsiyaya uyğun hazırlamağınız məsləhətdir. Seçdiyiniz şarlar və bəzək əşyaları ilə məkanı bəzədikdən sonra veriləcək yeməkləri müəyyən etməyiniz tövsiyə olunur. Tort, yemək, şarlar, konfet və nəhayət musiqi və oyunları qurduqdan sonra demək olar ki, hazırsınız.





## "Baby Shower" nə vaxt keçirilir?

Bu yığıncaq üçün ən vacib element mütləq vaxtdır. Vaxtı və məkanı nəzərə almadan bütün digər dekorasiya, uşaq tortu və bəzək işlərinə keçməməlisiniz. Düzgün vaxtlama böyük əhəmiyyət kəsb edir. Əgər yığıncağın hansı ayda keçirildiyi ilə maraqlanırsınızsa, bunun adətən doğumdan bir neçə ay əvvəl keçirildiyini bilmək faydalıdır. Ancaq bunun üçün dəqiq bir qayda yoxdur. Gələcək ana üçün ən uyğun vaxtı təyin etməyiniz tövsiyə olunur. Yığıncağa hazırlıq üçün vaxt təyin edərkən bir çox məqamları nəzərə almalısınız.

İlk növbədə, gələcək ananın təyin etdiyiniz tarixdə heç bir görüşünün olmadığına əmin olmalısınız. Sonra şənlik üçün kifayət qədər vaxt ayırmalısınız. Lazım olduğundan daha az vaxt ayırsanız, planlaşdırmaqda çətinlik çəkə bilərsiniz. Məhdud vaxtda işiniz tələsik qarışa bilər. Bunun üçün düzgün vaxt çox vacibdir.

***Ayşən Vəli***

# "Nar" region qadınlarının şəxsi inkişafına dəstək olur

Beynəlxalq Qadınlar Günü ərəfəsində start götürən "Her Art in Action" festivalına dəstək olan "Nar"yaradıcılığı və ifadə azadlığını ön plana çəkən bu layihənin əsas tərəfdaşlarından biridir. 9 mart - 6 aprel tarixlərini əhatə edən festivalın builki mövzusu "Xəyal etmək azadlığı" qadınların fərdi və kollektiv şəkildə xəyallarını necə təsəvvür etdiyini, vizuallaşdırdığını və ifadə etdiyini araşdırır. Azərbaycan Rəssamlar İttifaqı və VarYox platformasının təşkilatçılığı ilə baş tutan festival sənətsevərləri bir araya gətirir və yaradıcı ifadəni təşviq edir.



Festivalın təşkilinə verdiyi dəstəkdən əlavə, "Nar" sosial inklüzivlik strategiyası çərçivəsində 11 nömrəli internat məktəbinin şagirdlərinin sərgiyə qatılmasını təmin edir. Bu təşəbbüs gənc nəslin incəsənətlə tanış olmasına, yaradıcılıq potensialını inkişaf etdirməsinə və ifadə imkanlarını genişləndirməsinə şərait yaradır. Şagirdlər sərgi çərçivəsində müxtəlif sənət əsərləri ilə tanış olmaq və interaktiv seminarlarda, tədbirlərdə iştirak etmək imkanı əldə edəcəklər.



Tədbirin açılış nitqində çıxış edən "Nar"ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova bildirib: "Nar" olaraq, milli mənəvi dəyərləri yaşadan sənətə dəstək verməkdən qürur duyuruq. "Her Art in Action" festivalı təkcə qadınların incəsənətdə rolunu gücləndirmir, həm də regionlardakı istedadlı sənətkarların səsini duyurmağa imkan yaradır. Biz həmçinin 11 nömrəli internat məktəbinin gənclərinin festivalda iştirakını dəstəkləyərək inklüziv mühiti təşviq edirik".

Festivalın sərgisi Lesli Qrey və Ayna Moazzenin kuratorluğu ilə baş tutan və regionlarımızı təmsil edən yerli rəssamlarla yanaşı, beynəlxalq rəssam və kuratorların işlərini təqdim edəcək. Rəsm, video əsərlər, instalyasiyalar və tamaşaları əhatə edən ekspozisiya çərçivəsində seminarlar, portfolio icmalları və müzakirələr təşkil olunacaq. Tədbir bütün sənətsevərlər üçün açıqdır. Festival haqqında daha ətraflı məlumatı qeyd edilən linkdən əldə etmək mümkündür: https://herartinaction.com

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Aİ Ermənistanı silahlandırır

*Bakı isə yenidən İrəvanı əməkdaşlığa çağırır*

Qondarma "dqr"-in keçmiş rəhbərlərinin məhkəməsi zamanı Ermənistan tərəfindən Azərbaycan ərazilərində yaradılmış separatçı qurumla bağlı mühüm faktlar üzə çıxır. Ermənistan hakimiyyətinin Bakıda keçirilən dinləmələrlə bağlı reaksiyası isə terrora, separatçılığa haqq qazandırmaqdır. Ermənistan hökuməti məhkəmənin əleyhinə lazımsız təbliğat aparmaqdansa Azərbaycanla əməkdaşlıq etsə məsələnin həlli, daha doğrusu sülh danışıqlarında irəliləyiş əldə edilə bilər. "Sülh üçün səmimi istək və Azərbaycanla münasibətlərə yeni bir başlanğıc, digər məsələlərlə yanaşı, Ermənistanın öz məsuliyyətini etiraf etmək və müharibə cinayətlərində ittiham olunanları, xüsusən də hazırda ölkədə gizlənənləri ekstradisiya etmək istəyi ilə nümayiş etdiriləcək. Lakin İrəvan bu cinayətlərin zamanla unudulacağına inanırsa, çox yanılır", - deyə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev deyib.H.Hacıyevin təklifinə Ermənistanda məsələyə ilk reaksiya verən müxalifət nümayəndələri olub. Belə ki, Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov hələ 2021-ci ilin martında Bakının Qarabağ liderlərini ona təslim etmək tələbini proqnozlaşdırdığını bildirib. Eyni zamanda Şarmazanov Ermənistanın baş naziri Nikol Paşinyanın bu məsələdə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə hərəkət edə biləcəyini istisna etməyib. "H.Hacıyev açıq şəkildə Ermənistandan "Qarabağ liderləri"nin (kursiv bizimdir-red.) təhvil verməsini tələb edir. Söhbət ilk növbədə Robert Köçəryan və Serj Sarkisyandan gedir. Nikolun Azərbaycanın tələbini yerinə yetirəcəyini istisna edirsiniz? Bunun qarşısını almaq üçün Nikolanı uzaqlaşdırmaq lazımdır", - Respublikaçılar Partiyasının nümayəndəsi bəyan edib.Öz növbəsində, parlamentin "Mənim şərəfim var" fraksiyasının katibi Tiqran Abramyan Hacıyevin bəyanatını Bakının sülh müqaviləsinin bağlanması ilə bağlı növbəti tələbinin formalaşdırılması kimi qiymətləndirib. "Ermənistan hakimiyyətinin səmimiyyətini "qiymətləndirmək" üçün Azərbaycan onlardan "müharibə cinayətləri"nin törədilməsində "təcavüzkar", "işğalçı" roluna görə məsuliyyəti öz üzərinə götürməyi, həmçinin Azərbaycan hakimiyyətinin cinayətkar kimi təqdim etdiyi fiqurları Bakıya təhvil verməyi tələb edir", - Abramyan qeyd edib."Atlas" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə bildirib ki, erməni siyasətçiləri narahat olmaqda haqlıdırlar. "Birincisi, separatçılar məhkəmədə iddia edirlər ki, onlar uzun illər sifarişləri İrəvandan alıblar və "DQR"-i müstəqil qurum kimi təqdim etməyə çalışsalar da, bu, mümkün olmayıb. Məhkəmədə bunun yalan olduğu bir daha bəlli oldu. Məsələn, separatçıların sonuncu lideri Arayik Arutyunyan məhkəmədə bildirib ki, o, ikinci Qarabağ müharibəsinin başlanğıcında Bakı ilə kapitulyasiya ilə bağlı danışıqların tərəfdarı olub. O, Paşinyanla bu məsələni müzakirə edib. Amma Ermənistanın baş naziri ona cavab verib ki, Azərbaycan ordusu ilə hərbi əməliyyatlar davam etdirilməlidir", - ekspert bildirib.SSRİ-nin son illərində erməniləri Qarabağda üsyana sövq etməkdə Köçəryan və Sarkisyanın xüsusi rol oynadığı bəllidir. Əvvəlcə Xankəndidə mitinqlər təşkil ediblər, sonra isə yerli əhalini silahlandırmağa başlayıblar. Bundan sonra Qarabağdakı azərbaycanlı yaşayış məntəqələrinə silahlı hücumlar başlayıb və qurbanların sayı artıb. Sülh müqaviləsinə gəlincə, Azərbaycan onu imzalamağa çalışır, lakin bu o demək deyil ki, ölkə sakinləri törədilmiş cinayətləri unudacaqlar. Bu arada erməni ekspertlər Köçəryanın və Sarkisyanın Azərbaycana ekstradisiyasının sülh müqaviləsinin imzalanması üçün şərtlərdən birinə çevrilə biləcəyini istisna etməyiblər. Təsəvvür etmək çətindir ki, Bakı bu tələbi sülh müqaviləsinin imzalanması üçün ilkin şərt qoysun. Üstəlik, Azərbaycan hakimiyyətinin sülh müqaviləsinin imzalanması ilə bağlı tələblərindən biri də iddiaların qarşılıqlı olaraq geri götürülməsidir.







## Bəs Ermənistanı kim silahlandırır?

Avropa İttifaqı Ermənistana Avropa Sülh Fondundan daha 10 milyon avro ayırmağı düşünür. Kaya Kallas artıq bu təklifi Aİ Şurasına təqdim edib. Bu vəsait Ermənistanın müdafiəsini gücləndirilməsi üçün istifadə olunacaq. Avropa Sülh Fondunun Ermənistana ayırdığı 10 milyon avro regionda sülhə xidmət etməyəcək. Bu addım Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında münasibətlərin strateji xarakterinə mənfi təsir göstərəcək. Avropa İttifaqı Şurası Avropa Sülh Fondu çərçivəsində Ermənistanın müdafiə qabiliyyətinin artırılması üçün 10 milyon avro yardım göstərilməsinə qərar verib. Ermənistanla Azərbaycan arasında yekun sülh müqaviləsi hələ də imzalanmayıb. Ermənistan 30 ilə yaxın dövr ərzində Azərbaycan ərazilərini işğal altında saxlayan dövlətdir. Bu vəsait məbləğindən asılı olmayaraq sülhə xidmət etməyəcək. Əksinə, bu qərar Ermənistanda revanşizm meyllərinin güclənməsinə, bu ölkənin yenidən təcavüzkar siyasət həyata keçirməsinə təkan verə bilər.Rəsmi Bakı Aİ-nin bu addımını heç bir halda ədalətli yanaşma kimi qiymətləndirmir və dövlət rəsmiləri də bu barədə öz mövqelərini ifadə ediblər. Aİ-nin mövcud qərarı təsadüfi deyil. Son illərdə Aİ-nin bir sıra strukturları, o cümlədən, bəzi Avropa ölkələri regionda Ermənistan mərkəzli bir siyasət yürüdürlər və hesab edirlər ki, bu siyasətlə onlar İrəvanı tədricən öz siyasi orbitlərinə daxil edə biləcəklər. Avropa İttifaqı bu kimi qərarlarla regionda öz geosiyasi maraqlarını təmin etmək, regionu Rusiya ilə geosiyasi qarşıdurma meydanına çevirmək istəyir.

Bu qərar Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinə təsirsiz ötüşməyəcək. Aİ-nin Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu nəzərdən qaçırmaq lazım deyil, bir sıra Avropa dövlətləri Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Bu gün Azərbaycan Avropa məkanında təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayan dövlətlərdən biridir.Görünür, bütün bunlar Avropadakı bəzi dairələr marağından kənardadır. Bu isə regionda davamlı sülhün təmin olunmasına deyil, əksinə, yeni hərbi-siyasi eskalasiyanın yaranmasına, bölgədə bölücü xətlərin ortaya çıxmasına səbəb olacaq.Aİ və xüsusən Fransa 44 günlük müharibədən sonra regionda yaranmış yeni geosiyasi reallıqlar, Azərbaycanın nüfuzunun əsaslı artmasından narazı olaraq, Ermənistanı silahlandırmağı davam etməyə çalışır. Aktiv şəkildə Ermənistana siyasi dəstəyi ilə seçilən Fransa bu əməkdaşlığı daha da gücləndirmək və xüsusilə hərbi müstəviyə daşımaq üçün addımlar atmağa hazırlaşır. Belə ki, Fransanın müdafiə naziri Sebastyan Lekornyu rəsmi Parisin Ermənistana hava hücumundan müdafiə silahları satmağa hazırlaşdığını, həmçinin iki ölkənin hərbi təhsil sahəsində əməkdaşlığı müzakirə edəcəyini vurğulayıb.Rəsmi Parisin anti-Azərbaycan, antitürk siyasəti, Ermənistanı açıq-aşkar dəstəkləməsi yeni hal deyil. Azərbaycan 2020-ci ildə Vətən müharibəsində qələbə qazandıqdan sonra Fransanın bu siyasəti daha açıq şəkildə "türkəfobiya", "Azərbaycanafobiya" şəklində təzahür etməyə başlayıb. Bu, Fransanın aqressiv geopolitik maraqlarından irəli gəlir. Fransa özünü Avropa İttifaqının əsas aparıcı ölkəsi kimi təqdim etməyə çalışır. Ona görə, Fransa dünyanın müxtəlif regionlarına müdaxilələr, təzyiqlər etmək kimi destruktiv bir funksiyanı da öz üzərinə götürüb. Fransa İkinci Dünya Müharibəsində qazanılmış qələbəyə parazit şəkildə şərik çıxan, müharibədə heç bir rol oynamayan, Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının üzvü və nüvə ölkəsi olaraq, xüsusilə Avropa İttifaqı çərçivəsində daim özünü lider kimi görən ölkədir. Fransanın Avropa İttifaqında və ondan kənar regionlarda proaktiv siyasət aparması XX əsrin ortalarından başlayaraq, XXI əsr, yeni 2000-ci illərdən üzü bəri tam iflasa uğrayıb. Fransa düşünür ki, Cənubi Qafqazda Azərbaycana və Türkiyəyə düşmən mövqe tutan Ermənistanı manipulyasiya edərək bu siyasətini yürütsün. Buna baxmayaraq, 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri separatizmin kökünün kəsilməsinə, Fransanın planlarının puç olmasına gətirib çıxardı.Hazırda Fransanın Ermənistana hansısa yeni silahların verilməsi haqqında sərsəm bəyanatlarını eşidirik. Fransa erməni revanşizmini yenidən canlandırmağa çalışır, çünki bütün digər regionlarda Fransanın rıçaqları, təzyiq metodları alt-üst edilib. Makron isə Fransadakı erməni seçicilərin dəstəyini qazanaraq, növbəti seçkilərdə qələbə qazanmaq istəyir.

Hazırda onun ölkənin daxilində reytinqi çox aşağıdır və bunu Fransada yaşayan ermənilərin hesabına düzəltməyə çalışır. Vətən müharibəsi, antiterror əməliyyatlarından sonra Zəngəzur dəhlizinin açılması Fransanın geosiyasi və geoiqtisadi cəhətdən tamamilə məğlubiyyətinə, siyasətinin fiaskosuna səbəb olacaq. Fransa dünyada qəti şəkildə beynəlxalq sülh və təhlükəsizliyin qayğısına qalmaq iqtidarında deyil. Əksinə, bu dövlət beynəlxalq sülhə, təhlükəsizliyə təhdid yaradır və buna görə, Fransanın BMT Təhlükəsizlik Şurası üzvlüyündən çıxarılması tələb olunmalıdır.Ermənistanın Aİ tərəfindən silahlandırılması sülh gündəliyinə xidmət etmir və alınan bütün yeni silahların şərti sərhəddə yaxın bölgədə peydə olması legitim hədəf olmasına gətirib çıxaracaq. Bunu əvəzində Ermənistan özünün Aİ nümayəndəliyində daimi hərbi attaşe vəzifəsini yaradıb. Bu isə onu göstərir ki, Ermənistanın Aİ ilə hərbi sahədə əməkdaşlığı yeni sistematik mərhələyə çıxıb.

## Aİ və Belçikaya hərbi attaşe təyini

Ermənistan Avropa İttifaqına, eləcə də Belçikaya hərbi attaşe təyin edəcək. Bu barədə hökumət martın 6-da keçirilən iclasında qərar verib. Layihənin Ermənistan Müdafiə Nazirliyinin əsaslandırmasında bildirilir ki, NATO-dakı missiyanın müdafiə attaşesi bu vəzifəyə yarımştat əsasda təyin olunacaq. Sənəddə qeyd olunur ki, Aİ və Belçikada müdafiə attaşesi vəzifəsinin mövcudluğu Ermənistan və Belçika ilə Aİ arasında müdafiə, təhlükəsizlik və hərbi məsələlərdə əməkdaşlığın əhəmiyyətli dərəcədə inkişafı ilə bağlıdır."Avropa Sülh Mexanizmi çərçivəsində Ermənistana göstərilən dəstək, Ermənistanın Aİ-nin böhranların idarə olunması missiyalarında iştirakı ilə bağlı çərçivə sazişi üzrə danışıqlara başlanması, həmçinin Ermənistan-Aİ tərəfdaşlıq gündəliyində təhlükəsizlik və müdafiə komponentinin əhəmiyyətli dərəcədə genişləndirilməsi Aİ ilə hərbi əməkdaşlığın gələcək inkişafı üçün əlverişli şərait yaradıb", - deyə layihədə bildirilir. NATO nümayəndə heyətinin Ermənistan Respublikasına səfəri çərçivəsində fevralın 17-21-də "Əlaqədar Tərəfdaşlıq İmkanlarının Qiymətləndirilməsi" adlı təlimin birinci mərhələsi keçirilib. Ermənistan Müdafiə Nazirliyi açıqlayıb ki, təlimin məqsədi respublikanın Şimali Atlantika Alyansı ilə əməkdaşlığını gücləndirməkdir.Beləliklə, Ermənistanın militarizasiyası, Brüsseldə daimi hərbi attaşe postunun yaradılması və Aİ Müşahidə missiyasının fəaliyyətinin uzadılması vahid siyasətin ayrı-ayrı elementləridir. Şpion müşahidəçilər missiyasının fəaliyyətinə ehtiyac yoxdur. Bütün bunlar regionda davamlı və dayanıqlı sülhün əldə olunmasının əleyhinə işləyir. Ermənistan isə işğalçı və təcavüzkar dövlət kimi tərksilah edilməlidir, II Dünya Müharibəsindən sonra işğalçı Almaniya və Yaponiyaya qarşı edildiyi kimi.

**V.VƏLİYEV**

ANALİTİK

# 850 milyon əsiri, 3 milyon qurbanı olan xəstəlik

***Böyrək çatışmazlığı bir çox fərqli səbəbdən yarana bilər. Bunlara genetik faktorlar, əvvəllər keçirilmiş xəstəliklər, yanlış dərman istifadəsi və hətta ətraf mühitin çirklənməsi kimi bir çox səbəblər daxildir. Bundan əlavə, uzun müddət susuz qalan insanlarda bəzən böyrək yetməzliyi yarana bilər. Böyrək çatışmazlığının əsas səbəbindən asılı olaraq, xəstəliyin növü və inkişafı insandan insana dəyişir.***



Xroniki Böyrək Xəstəliyi böyrəyin metabolik və hormonal funksiyalarının birdəfəlik itirilməsi ilə xarakterizə olunan xəstəlikdir. Böyrək çatışmazlığı ağırlaşmalara və ölümcül vəziyyətlərə səbəb olan, həyat keyfiyyətini aşağı salan, dializ və böyrək transplantasiyası kimi yüksək xərc tələb edən ciddi xəstəlikdir. Beynəlxalq Nefrologiya Cəmiyyətinin apardığı araşdırmalara görə, hazırda dünyada 850 milyondan çox insan xroniki böyrək xəstəliyindən əziyyət çəkir. Hər il 3 milyondan çox insan bu xəstəlik səbəbindən ölür. Yüksək gəlirli ölkələrin illik səhiyyə büdcələrinin təxminən 3%-i dializ və böyrək transplantasiyası xərcləri ilə bağlıdır.

Azərbaycanda 3 mindən çox hemodializ xəstəsi var. Xəstələrin 53 faizini kişilər, 46 faizini isə qadınlar təşkil edir. Hemodializ xəstələrinin orta yaş həddi 35-60 arasındadır. Azərbaycanda hər 1 milyon vətəndaşın təxminən 250-450-si böyrək xəstəliyindən əziyyət çəkir. Xroniki böyrək xəstəliyinin yayılma arealı ölkə, irq, yaşa və cinsə görə dəyişsə də, əsas səbəblər piylənmə, şəkərli diabet və hipertoniyadır. Ölkəmizdə də hipertoniya, şəkərli diabet və ürək xəstəliyi olanlarda xroniki böyrək xəstəliyinə daha çox rast gəlinir. Buna görə də, bu xəstəliklər və risk faktorları ilə mübarizə xroniki böyrək xəstəliklərinin qarşısının alınmasında və ya inkişafının dayandırılmasında əsas profilaktika üsuludur. Bundan əlavə, erkən diaqnoz, effektiv müalicə və monitorinq prosesləri bu xəstəliklərin inkişafının dayandırılması və bu xəstəliklərlə bağlı yeni xəstəliklərin yaranmasının qarşısının alınması üçün mübarizədə ən vacib addımlardır.

Böyrək çatışmazlığı olan xəstələr əvvəlcə böyrəklərinin düzgün işləmədiyini anlamaqda çətinlik çəkirlər. Böyrək funksiyaları zamanla azaldıqca, böyrək çatışmazlığına görə başqa xəstəliklər də inkişaf edə bilər. Böyrəklərin tədricən ölçüləri kiçilir və onların orqanizmdə yığılan mayeni xaric etmə qabiliyyəti azalır. Böyrək kiçilməsi çox riskli bir vəziyyətdir və son mərhələdə böyrəyin bütün funksiyalarını itirməsinə səbəb ola bilər. Bundan əlavə, böyrəklər düzgün işləməsə, qan təzyiqinə də mənfi təsir göstərə bilər.

Çünki böyrəklər düzgün işləmədikdə qanda olan zəhərli maddələr bədəndən lazım olduğu kimi çıxarıla bilmir. Bu da yüksək təzyiqə səbəb ola bilər. Ancaq bəzi insanlarda yüksək təzyiq böyrək çatışmazlığının səbəbidir. Uzun müddət yüksək qan təzyiqi (hipertoniya) olan insanlarda böyrək çatışmazlığı müşahidə oluna bilər. Böyrək çatışmazlığının insanın həyatı üçün təhlükə yarada biləcək ciddi nəticələri var və buna görə də əlamətləri hiss edilməyə başlayanda dərhal mütəxəssis həkimə müraciət etmək, müayinədən keçmək və müalicəyə başlamaq lazımdır. Böyrək çatışmazlığının müalicəsində bu vəziyyətin əsas səbəbinin aradan qaldırılması çox vacibdir.



Qısa müddətdə böyrək funksiyaları zəifləsə və toksinlər orqanizmdə yığılmağa başlasa, kəskin böyrək çatışmazlığı ola bilər. Böyrək çatışmazlığı xəstəliyi 5 fərqli alt tipə bölünür. Bunlar kəskin prerenal böyrək çatışmazlığı, kəskin daxili böyrək çatışmazlığı, xroniki prerenal böyrək çatışmazlığı, xroniki daxili böyrək çatışmazlığı və xroniki postrenal böyrək çatışmazlığı kimi sıralana bilər. Kəskin Prerenal Böyrək Çatışmazlığı böyrəklərə axan qanın miqdarı qeyri-kafi olduqda baş verir. Böyrəklərə kifayət qədər qan axını olmadığı üçün böyrəklər toksinləri süzə bilmir və orqanizm zəifləyir. Məlumdur ki, bu tip böyrək çatışmazlığı adətən böyrəklərə çatan qanın azalmasının səbəbi müəyyən edildikdə müalicə oluna bilər.

Kəskin Daxili Böyrək Çatışmazlığı adətən fiziki zədə və ya qəza kimi səbəblərdən yaranır. Buna görə də, böyrəyin birbaşa travması ilə əlaqəli bir vəziyyətdir. Bundan başqa böyrəklərdə oksigen çatışmazlığı olaraq da təyin oluna bilən "işemiya" və böyrəklərdə toksin əmələ gəlməsi də əhəmiyyətli səbəblərdir. Oksigen çatışmazlığının ən çox rastlanan səbəbləri ağır qanaxma, böyrəklərə gedən bəzi qan damarlarının tıxanması, kapilyarlarda iltihabdır. Bu, böyrəklərə həddindən artıq yük verir və onların normal funksiyalarını yerinə yetirə bilməməsinə səbəb olur.

Xroniki Prerenal Böyrək Çatışmazlığı insanın böyrəklərinə qan axını süräti normal dəyərdən xeyli aşağı olması deməkdir. Qan axınının yavaşlaması böyrəklərin zamanla kiçilməsinə və funksiyalarını itirməsinə səbəb olur. Xroniki daxili böyrək çatışmazlığı xarici səbəblərdən deyil, böyrəyin özündə olan bir xəstəlik və ya travmadan qaynaqlanır. Daxili böyrək xəstəliyi olaraq da bilinən bu vəziyyət ağır qanaxma, oksigen çatışmazlığı və ya birbaşa böyrəklərə təsir edən travma kimi vəziyyətlər nəticəsində meydana gəlir.

Xroniki Postrenal Böyrək Çatışmazlığı əsasən sidik yolları ilə əlaqədardır. Əgər insan müxtəlif səbəblərdən uzun müddət sidiyə getmirsə və bu müntəzəm hal alırsa, böyrəklərdə həddindən artıq təzyiq yaranır. Bu, zamanla böyrək funksiyalarının pozulmasına gətirib çıxarır. Buna görə də sözügedən böyrək çatışmazlığının əsas səbəbini sidik yollarının uzun müddətli tıxanması kimi ümumiləşdirmək olar.

Böyrək çatışmazlığının simptomları əvvəlcə yüngül olur və zamanla özünü büruzə verdiyi üçün, xəstəliyin erkən mərhələlərində diaqnoz qoymaq çətindir. Böyrək çatışmazlığı olan insanlar adətən ilk mərhələdə sidik ifrazında azalma müşahidə edirlər. Bundan əlavə, bəzi əzalar şişə bilər və nəfəs darlığı kimi əlamətlər də yarana bilər. Əgər əvvəlkindən daha az sidik ifrazı varsa, bədəndəki artıq suyun xaric edilə bilmədiyi üçün ayaq, ayaq, topuq kimi əzalarda şişlik yaranıbsa, astma, virus-bakterial infeksiya və ya oxşar xəstəliklərlə əlaqəli olmayan, səbəbi bilinməyən nəfəs darlığı varsa, həddindən artıq zəiflik, yorğunluq və daimi yuxu istəyi, mədə bulanması varsa o zaman böyrək xəstəliyindən şübhələnmək lazımdır.

Böyrək çatışmazlığının mərhələləri ümumiyyətlə xəstəliyin şiddətinə görə beş fərqli mərhələyə bölünür. Birinci mərhələ olduqca mülayimdir və simptomlar çox deyil. Əksər xəstələrdə böyrək çatışmazlığının əlamətləri ümumiyyətlə müşahidə olunmur, həmçinin böyrəklərin zədələnməsi də minimaldır. 1-ci mərhələdə böyrək çatışmazlığı olan insanlar həyat tərzində müsbət dəyişikliklər etsələr, xəstəliyin inkişafının qarşısını ala bilərlər. Müntəzəm məşq etmək, siqaret və alkoqoldan imtina etmək, orqanizmi nəzarət altında saxlamaq və sağlam qidalanma əsas şərtdir. Ancaq bu mərhələdə xəstəliyə qalib gəlmək göründüyü qədər asan deyil, çünki ilk mərhələdə xəstəliyi fərq etmək çox çətindir, ona görə də insanların çoxu həkimə getməyə və ya həyat tərzini dəyişməyə ehtiyac duymur.





Böyrək çatışmazlığının ikinci mərhələsi olan insanlar birinci mərhələyə bənzər ciddi simptomlar hiss etmirlər. Lakin müəyyən etmək olar ki, bu mərhələdə insanların böyrəklərində müəyyən dərəcədə fiziki zədələnmələr olur və normal birinci mərhələ ilə müqayisədə böyrəyin sidiyin filtrasiya funksiyasındakı rolunda azalma olur. Bu mərhələdə də 1-ci mərhələdə olduğu kimi həyat tərzində dəyişiklik etmək tövsiyə olunur.

Böyrək çatışmazlığının üçüncü mərhələsində xəstəliyin əlamətləri nəzərə çarpır və orqanizmdə müxtəlif fiziki əlamətlər görünür. Xəstəliyin gedişindən asılı olaraq, insanın əllərində, ayaqlarında və topuqlarında şişkinlik yarana bilər. Bundan əlavə, insanın sidik ifrazı da dəyişir. Bu mərhələdə insan həyat tərzi dəyişikliyi ilə yanaşı dərman qəbul etməyə başlamalı və böyrək çatışmazlığına səbəb olan şərtlər müəyyən edilərək müalicə edilməlidir.

Dördüncü mərhələdə böyrək çatışmazlığının əlamətləri kəskinləşir. Normal bir böyrəkdə böyrəyin sidiyin filtrasiya funksiyası 90 ml/dəq və yuxarıdır, bu mərhələdə isə sidiyin filtrasiya funksiyası 15-29 ml/dəq arasında azalır. İnsanın böyrəkləri hələ tam sıradan çıxmayıb, lakin öz funksiyalarını böyük ölçüdə itirib. Bu mərhələdə müşahidə edilən ciddi simptomlar arasında yüksək qan təzyiqi (hipertoniya), sümük xəstəliyi və anemiya kimi ciddi problemlər var.

Son mərhələdə xəstələrdə böyrək funksiyası demək olar ki, tamamilə pozulur. Sidik filtrasiya qabiliyyəti 15 ml/dəqdən aşağı düşür və buna görə də dializ və ya böyrək transplantasiyası kimi qabaqcıl müalicələr tələb olunur. Bu mərhələdə insan artıq öz orqanizmində böyrək çatışmazlığının bütün əlamətlərini hiss edir. Əvvəlki simptomlara əlavə olaraq, şəxs ürəkbulanma, qusma, nəfəs darlığı, şişlik və dəri qaşınması ilə müşahidə olunur.

Böyrək sağlamlığını qorumaq üçün ən vacib addım sağlam qidalanma və bol su istehlak etməkdir. Duz qəbulunu azaltmaq, tütün məmulatları və alkoqoldan uzaq durmaq, daim hərəkətdə olmaq vacibdir. Böyrək çatışmazlığı orqanizmdəki böyrəklərdən birinin və ya hər ikisinin müxtəlif səbəblərdən qandakı zəhərli maddələri təmizləmək qabiliyyətini itirməsi halıdır. Böyrək çatışmazlığı bəzən kəskin böyrək çatışmazlığı kimi inkişaf edə bilər, digər hallarda isə illər ərzində yavaş-yavaş inkişaf edərək xroniki hala gələ bilər. Böyrək çatışmazlığı olan xəstələrdə böyrək funksiyaları 85% və ya daha çox azalır. Bu funksiya itkisi adətən birdən birə baş vermir, illərlə əlamətləri baş qaldırır, lakin etinasız yanaşıldığı üçün xroniki hala keçir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı " istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
11 mart
2025-ci il

# "Dəyişikliklər bir çox faktora bağlıdır"

## *Ekspert detalları açıqladı*





"Azərbaycan kimi cəmiyyətlərdə ailə və kollektiv dəyərlər, tarixən, sosial strukturların və gündəlik həyatın mərkəzində dayanan mühüm amillər olmuşdur. Ənənəvi olaraq, ailə bir çox funksiyanı yerinə yetirən əsas sosial vahid kimi qəbul edilir və kollektiv dəyərlər, bir cəmiyyətin bağlarını gücləndirən, qarşılıqlı hörmət, dəstək və əməkdaşlıq prinsiplərinə əsaslanır. Lakin son dövrlərdə, xüsusən gənc nəsil arasında bu ənənələrə bağlılıqda azalma müşahidə edilir". Bu sözləri SİA-ya açıqlamasında sosial məsələlər üzrə ekspert Ramal Əliyev deyib.

Ramal Əliyev sözlərinə belə davam edib: "Bu dəyişikliklər bir çox faktora bağlıdır. Azərbaycan qlobal dəyişikliklərə və beynəlxalq trendlərə açıqlığını artıran bir ölkədir. Bu, xüsusilə gənc nəsildə özünü göstərir. Qloballaşma, müxtəlif mədəniyyətlərin, həyat tərzlərinin və düşüncə tərzlərinin bir-birinə qarışmasına səbəb olur. İnternet, sosial media və müasir texnologiyalar, gəncləri daha geniş bir dünyaya açır və müxtəlif dəyərlərlə tanış olmağa vadar edir. Bu da nəticədə bizim kimi cəmiyyətlərdə milli-mental(dini) dəyərlər söykənən ailə modelinin tədricən deqradasiyaya uğramasına gətirib çıxardır.

Təhsil sistemi, gənc nəslin dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayır. Azərbaycan təhsilində həm ölkə daxilində, həm də xaricdə təhsil alan gənclər, müasir cəmiyyətlərdə qarşılaşdıqları yeni düşüncə tərzləri ilə tanış olurlar. Bu, gənclərin öz ətraflarındakı ənənəvi düşüncə və mədəniyyətdən daha fərqli bir dünyagörüşünə sahib olmalarına səbəb olur. Gənc nəsil artıq ailə ənənələrinə və kollektiv dəyərlərə uyğun olmayan, daha müstəqil və fərdi düşüncələrə sahib olmağa başlayır.Bunun da ciddi mənfi təsirləri vardır.Klassik ənənələrə söykənən ailə modelini sıradan çıxması avropadan gələn yeni liberal dəyərlərlə əvəz olunması deməkdir. Və beləcə ailə strukturunun tədricən dəyişməsiylə nəticələnən bir proses davam etməkdədir.

Ənənəvi olaraq, Azərbaycan cəmiyyətində böyük ailə modelləri, çoxsaylı nəsillərin bir arada yaşadığı strukturlar dominant idi. Lakin müasir dövrdə, daha kiçik nüvə ailələri, xüsusilə şəhərlərdə daha çox yayılmağa başlayıb. Bu da sosial əlaqələrin və kollektiv dəyərlərin zəifləməsinə səbəb olur. Gənc nəsil, ailə daxilində daha müstəqil qərarlar qəbul etməyə başlayır və kollektiv qərarlara sadiq qalma ehtiyacı daha az hiss olunur. Bu dəyişiklik həm də ailədaxili rol və məsuliyyətlərin yenidən müəyyənləşdirilməsinə səbəb olur. Bu səbəblərdən dolayı ailə dəyərlərimizi qorumaq naminə gənc nəsillə kompleks ciddi marrifçilik işləri həyata keçirilməlidir. Gənclərimizə Avropadan gələn texnoloji yenilikləri, elmi, təhsili mənimsəmək lazımdır çökməkdə olan, dağılmış Avropa ailə dəyərlərini deyil. Bir millətin var olması onun dili, dini, milli kimliyinin qorunmasıyla olur. Ailə, bu dəyərləri qoruyan özək sosial kollektivdir. Gəlin əsrlər boyu formalaşmış klassik ailə dəyərlərini qorumağa ciddi səy göstərək".

***Ayşən Vəli***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Növbəti Ümrə ziyarətinin vaxtı açıqlandı - qiymətlər 800-2000 dollar arası dəyişir...



Azərbaycandan növbəti Ümrə ziyarəti aprel ayında gözlənilir. Bunu Teleqraf-a Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsinin müdiri, Həcc elektron sisteminin rəhbəri Vüsal Cahangiri deyib.

O bildirib ki, aprel ayının 12-dən sonra Ümrə ziyarəti bir müddətlik dayandırılacaq. Çünki həmin tarixdən sonra Həcc ziyarəti başlayır: "Buna görə də həmin vaxt Ümrə ziyarətləri olmayacaq. Hər il Qurban bayramından 10-15 gün öncə Həcc ziyarəti başlayır. Zəvvarlar bayramdan 10-15 gün sonra geri qayıdırlar. Bu il Həcc ziyarətinə gedən zəvvarlar mayın 25-30-da yola düşəcəklər. İyulun 16-21-i intervalında isə geri dönüş olacaq".Ümrə ziyarətinin qiymətinə gəlincə, şöbə müdiri söyləyib ki, bu, qalma müddətinə, hotellərin neçə ulduzlu olmasına və yerləşdikləri məsafəyə görə dəyişir: "Qiymətlər 800-2000 dollar aralığındadır. Qiymət nə qədər çox olsa, xidmət o qədər yaxşı olur".

Vüsal Cahangiri söyləyib ki, əgər əvvəllər Ümrə ziyarətini təkcə Qafqaz Müsəlmanları İdarəsi təşkil edirdisə, indi bu işlə həm də turizm şirkətləri məşğul olurlar.

# "Mançester Yunayted" bu futbolçuları satışa çıxartdı!



"Mançester Yunayted" hazırda maliyyə çətinliyi yaşayır. QOL.az "Mirror"a istinadən xəbər verir ki, bu səbəbdən klub qarşıdan gələn yayda güclənmək üçün ilk növbədə oyunçularını satmalı olacaq. "Qırmızı şeytanlar" 6 futbolçudan xilas olmağa qərar verib. Bu siyahıya Markus Reşford, Tayrell Malasya, Antoni, Ceydon Sanço, Kazemiro və Kristian Eriksen daxildir.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**